

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Heydər Əliyev İli» ilə bağlı Tədbirlər Planını təsdiq etdi

2



Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2



«Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2


# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

№ 21-22 (757) 30 noyabr 2022-ci il | Qəzet 1991-ci ildən nəşr olunur | www.tibbqazeti.az





7

## Milli Məclis səhiyyə ilə bağlı qanunlara dəyişikliklər edib



4

## Səhiyyə naziri İsrail, Macarıstan, Belarus və Rusiya nümayəndə heyətləri ilə görüşüb



6




9

## Səhiyyə naziri orta tibb təhsilinin müasir standartlara uyğunlaşdırılmasına dair tapşırıqlar verib



8

### Aforizm

*Məqsədə çatmaq üçün ilk növbədə getmək lazımdır.*

*Onore de Balzak*

# Prezident İlham Əliyev «Heydər Əliyev İli» ilə bağlı Tədbirlər Planını təsdiq etdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Azərbaycan Respublikasında 2023-cü ilin «Heydər Əliyev İli» elan edilməsi ilə bağlı Tədbirlər Planı»nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

Sənəddə deyilir:

«Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, «Azərbaycan Respublikasında 2023-cü ilin «Heydər Əliyev İli» elan edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli 3494 nömrəli Sərəncamına uyğun olaraq **qərara alıram:**

**1.** «Azərbaycan Respublikasında 2023-cü ilin «Heydər Əliyev İli» elan edilməsi ilə bağlı Tədbirlər Planı» təsdiq edilsin.

**2.** Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 28 noyabr 2022-ci il»*

Sərəncama əlavə olunan Tədbirlər Planında il ərzində həyata keçiriləcək tədbirlər, onların icra müddəti, eləcə də tədbirin icraçı orqanları (qurumları) öz əksini tapıb.

Tədbirlər Planında Səhiyyə Nazirliyi qarşısında da müəyyən vəzifələr qoyulur. Belə ki, sənədin 13-cü bəndi «Heydər Əliyev İli» çərçivəsində sosial dəstək tədbirlərinin və xeyriyyə aksiyalarının keçirilməsini nəzərdə tutur. Tədbirin icrası Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Səhiyyə Nazirliyi və və Maliyyə Nazirliyinə həvalə olunub.

Tədbirlər Planının 12-ci bəndi isə «Təhsil müəssisələrində «Heydər Əliyev dərsləri»nin keçirilməsi» adlanır. Onun icraçı qurumları Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Elm və Təhsil Nazirliyi, habelə tabeliyində təhsil müəssisəsi olan aidiyyəti dövlət orqanlarıdır. Beləliklə, Azərbaycan Tibb Universitetində də «Heydər Əliyev dərsləri» təşkil olunacaq.

Tədbirlər Planının hər iki bəndi 2023-cü il ərzində həyata keçiriləcək.

# Şəhid həkim təltif edildi

**Prezident İlham Əliyev «Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında» Sərəncam imzalayıb.**

Sənədə əsasən, Vətənimizin ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik göstərmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərək şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir sıra hərbi qulluqçuları ölümündən sonra «Azərbaycan Bayrağı» ordeni, 3-cü dərəcəli «Rəşadət» ordeni, 3-cü dərəcəli «Vətənə xidmətə görə» ordeni, «Vətən uğrunda» medalı ilə, eləcə də Cəbrayılın. Xocavəndin, Füzulinin, Zəngilanın, Qubadlının, Şuşanın, Laçının azad olunmasına görə medallarla təltif ediliblər.

O cümlədən tibb xidməti leytenantı Tariyel Allahverdi oğlu Salmanov 3-cü dərəcəli «Vətənə xidmətə görə» ordeni ilə təltif olunub.

# Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2023-cü ilin aprel ayında Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 100 ili tamam olur.

Akademik Zərifə Əliyeva zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərləri həmişə təqdirlə qarşılanmış və yüksək qiymətə layiq görülmüşdür. Bu tədqiqatlarda irəli sürülən yeni və effektli müalicə metodları, kompleks profilaktik tədbirlər qısa müddətdə müvəffəqiyyətlə geniş tətbiqini tapmışdır. Azərbaycanda oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi olaraq ixtisaslaşdırılmış elmi tədqiqat laboratoriyası məhz akademik Zərifə Əliyevanın təşəbbüsü ilə yaradılmışdır. Həkimlik etikasını bütün elmi və pedaqoji fəaliyyəti boyu daim diqqət mərkəzində saxlayan Zərifə Əliyeva respublikada yüksəkixtisaslı kadrların hazırlanması işinə gərgin əmək sərf etmiş, gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəslini formalaşdırmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizdə tibb elminin inkişafında xüsusi xidmətlər göstərmiş görkəmli oftalmoloq alim Zərifə Əliyevanın anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə akademik Zərifə Əliyevanın 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 3 noyabr 2022-ci il*

# «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizi 30 ilə yaxın müddətdə Ermənistan Respublikası tərəfindən işğal altında saxlanılmışdır. İşğal dövründə bu ərazilərdə Azərbaycanın şəhərləri və digər yaşayış məntəqələri, o cümlədən infrastruktur obyektləri tamamilə dağıdılmış, milli-mədəni irsimiz məhv edilmiş, təbii sərvətlərimiz talan edilmiş, iqtisadiyyata əhəmiyyətli zərər vurulmuş, 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq Azərbaycan Ordusu əks-həmlə əməliyyatına başlamış və 44 gün davam edən Vətən müharibəsi nəticəsində torpaqlarımız işğaldan azad olunmuş, ölkəmizin ərazi bütövlüyü bərpa edilmişdir.

Azərbaycan Respublikası öz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni mərhələsinə qədəm qoymuşdur. Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm işlər görülmüşdür.

Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır.

İşğaldan azad edilmiş ərazilərə böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunmuşdur. Bu Milli Prioritetlərə əsaslanan «Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası» yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası»nın icrasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» təsdiq edilsin.

**2.** Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı»nın (bundan sonra - Dövlət Proqramı) səmərəli icrasının təmin edilməsi məqsədilə zəruri əlaqələndirmə tədbirləri görsün.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasına nəzarəti və hesabatlılığı həyata keçirsin;

3.2. Dövlət Proqramının həyata keçirilməsi ilə bağlı görülən işlər, o cümlədən Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**4.** Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

5. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi hər il, müvafiq olaraq, dövlət büdcəsinin və dövlət investisiya proqramlarının tərtibi prosesində maliyyə vəsaitinin nəzərdə tutulması üçün zəruri tədbirlər görsünlər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 16 noyabr 2022-ci il*

# Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» 30 ilə yaxın müddət ərzində dövlətimizin güclənməsi naminə aparılan uzaqgörən xarici siyasətin və görülən sistemli işlərin məntiqi davamı kimi, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, bərpası və dayanıqlı inkişafının, milli iqtisadiyyata sürətli inteqrasiyasının və bu ərazilərə Böyük Qayıdışın təmin edilməsi məqsədi ilə hazırlanıb. Dövlət Proqramı «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər»ə söykənən «Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası»nda əks olunmuş «İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış» Milli Prioritetinin icrasını təmin edəcək.

Dövlət Proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri və mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, Dövlət Proqramının prioritet istiqamətləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapıb. Sənədin hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb.

Dövlət Proqramının əhatə dairəsini Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilər təşkil edir.

Sənədin «Qlobal trendlər» bölməsində bildirilir ki, 2019-cu ilin dekabr ayından etibarən koronavirus (COVID-19) xəstəliyinin yayılması və qlobal pandemiyanın elan edilməsi, dünyada baş verən siyasi münaqişələr, eləcə də digər geosiyasi və iqtisadi proseslər beynəlxalq münasibətlərə, qlobal iqtisadiyyata, maliyyə və əmtəə bazarlarına kəskin təsir göstərməklə suverenlik və müstəqil xarici siyasət, ərazi bütövlüyü, sülh və təhlükəsizlik, güclü iqtisadiyyat, vətəndaşyönümlü sosial siyasət kimi amillərin əhəmiyyətini önə çıxarıb. Bu qlobal proseslər fonunda Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi ilə sadalanan istiqamətlər üzrə ölkənin daha da güclənməsi üçün tarixi şərait yaranıb.

İnkişaf etmiş ölkələrdə son onilliklər ərzində inklüzivlik, bərabər imkanlara əsaslanan inkişaf və regional bərabərsizliklərin aradan qaldırılması, rəqəmsal inkişaf, dairəvi iqtisadiyyat və yerli istehsal, «ağıllı» və dayanıqlı yaşayış məntəqələri, infrastruktur, vətəndaş iştirakçılığı kimi amillər idarəetmənin yeni istiqamətləri kimi önə çıxıb. Proqramın hazırlanması zamanı bu amillər ətraflı araşdırılıb, onların mümkün təsirləri təhlil edilib. Dövlət Proqramı çərçivəsində həyata keçiriləcək tədbirlərin məqsədləri müəyyənləşdirilərkən Birləşmiş Millətlər Təşkilatının və digər beynəlxalq qurumların irəli sürdükləri qlobal inkişaf prioritetləri nəzərə alınıb. Dövlət Proqramı çərçivəsində qarşıya qoyulan prioritetlər «universallıq», «inteqrasiyalı yanaşma» və «heç kimin geridə qalmaması» kimi prinsiplərə əsaslanan Dayanıqlı İnkişaf Məqsədlərinə və onların müvafiq hədəflərinə uyğunlaşdırılıb.

«Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» səhiyyə ilə bağlı bəzi məqamları da əhatə edir.

Belə ki, sənədin «Hədəf göstəricilər» bölməsində 2026-cı ilədək həyata keçirilməsi nəzərdə tutulan tədbirlər qruplaşdırılıb. Sosial inkişafla bağlı hədəf göstəricilərindən biri də təhsil, səhiyyə və sosial xidmətlərin qabaqcıl standartlara uyğun təmin olunmasıdır.

«Dövlət Proqramının məqsədləri» bölməsində bildirilir ki, proqramın əsas məqsədləri «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər»də işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışla bağlı təsbit olunmuş 2 məqsəd: əhalinin dayanıqlı məskunlaşması və ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası çərçivəsində müəyyən edilib. Bu məqsədlər arasında ərazilərdə təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək; şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək; müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək; ərazilərdə məskunlaşacaq əhalinin sosial müdafiəsini gücləndirmək; əhalinin məşğulluq imkanlarını artırmaq; sosial xidmətlərin əhatə dairəsini genişləndirmək və əlçatanlığı, dayanıqlı sosial-iqtisadi inkişafı təmin etmək və sair məqsədlər var.

Bu məqsədlərə nail olmaq üçün Dövlət Proqramı çərçivəsində əhalinin dayanıqlı məskunlaşması istiqamətində digər vəzifələrlə yanaşı, qabaqcıl standartlara uyğun təhsil, səhiyyə və sosial xidmətlərin yaradılması üçün tədbirlər həyata keçirilməsi, onların əlçatanlığının təmin edilməsi də nəzərdə tutulur.

Belə ki, işğaldan azad edilmiş ərazilərdə insan kapitalının inkişafı sahəsində sosial xidmətlər şəbəkəsinin (səhiyyə, sosial müdafiə, mədəniyyət və idman, məktəblər və məktəbəqədər uşaq-tərbiyə müəssisələrinin qurulması və digər ictimai xidmətlərin təşkili) yaradılması və maddi-texniki bazasının gücləndirilməsi, bölgədə məskunlaşacaq əhalinin keyfiyyətli səhiyyə və təhsil xidmətləri ilə təmin edilməsi, mədəniyyət və idman obyektlərinin bərpası və yenidən qurulması, məşğulluq imkanlarının artırılması məqsədilə fəal özünüməşğulluq proqramlarının həyata keçirilməsi və reabilitasiya müəssisələrinin qurulması planlaşdırılır.

Dövlət Proqramında müvafiq fəaliyyət istiqamətlərinə dair Tədbirlər Planı da hazırlanıb.

Tədbirlər Planının «Ərazilərdə şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisi və infrastrukturla təmini» prioritet istiqaməti üzrə «Yaşayış məntəqələrində müasir təhsil infrastrukturunun qurulması» fəaliyyət istiqamətində 2.4.7-ci bənd «Regional tibbi təhsil müəssisələrinin tikintisi» adlanır. Əsas icraçısı Səhiyyə Nazirliyi, digər icraçıları Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Elm və Təhsil Nazirliyi, yerli icra hakimiyyəti orqanları və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi olan bu tədbir 2022-2026-cı illərdə həyata keçiriləcək. Bu müddətdə tibbi təhsil müəssisələrinin yaradılması ilə bağlı təkliflər hazırlanması, 1 tibbi təhsil müəssisəsinin tikintisi və fəaliyyətə başlaması nəzərdə tutulur.

Bu prioritet istiqamətin digər fəaliyyət istiqaməti «Yaşayış məntəqələrində əlçatan və keyfiyyətli tibb xidmətləri infrastrukturunun qurulması»dır. Onun «Qəsəbə və kəndlərdə ailə sağlamlıq mərkəzləri və tibb məntəqələrinin tikintisi və tibbi xidmətin təşkili» bəndi 2023-2026-cı illəri əhatə edir. Əsas icraçısı Səhiyyə Nazirliyi, digər icraçıları Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, yerli icra hakimiyyəti orqanları və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi olan bu tədbir mərhələlər üzrə ailə sağlamlıq mərkəzləri və tibb məntəqələrinin tikintisi ilə bağlı təkliflər hazırlanmasını, 49 ailə sağlamlıq mərkəzinin və 39 tibb məntəqəsinin tikintisinin layihələndirilməsini, 41 ailə sağlamlıq mərkəzinin və 33 tibb məntəqəsinin tikintisinin başa çatdırılmasını, son nəticədə 49 ailə sağlamlıq mərkəzinin və 39 tibb məntəqəsinin tikintisinin başa çatdırılmasını və tibbi xidmətin təşkilini ehtiva edir.

Bu bəndin «Zəngilan rayonunun Ağalı kəndində və Xocavənd rayonunun Hadrut qəsəbəsində ailə sağlamlıq mərkəzlərinin fəaliyyətinin təşkili» yarımbəndi artıq icra edilib. Əsas icraçısı TƏBİB, digər icraçılar Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, yerli icra hakimiyyəti orqanları və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi olan bu yarımbənd üzrə həmin ailə sağlamlıq mərkəzlərinin fəaliyyəti təşkil olunub, zəruri tibbi avadanlıqlarla təmin edilib və tibb personalı işə cəlb olunub.

Həmin istiqamətin «Çoxprofilli modul tipli xəstəxananın (poliklinika da daxil olmaqla) tikintisi və tibbi xidmətin təşkili» adlanan 2.5.2-ci bəndi 2022-2026-cı illəri əhatə edir. Əsas icraçısı İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, digər icraçılar Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi olan bənddə modul tipli xəstəxananın tikintisi ilə bağlı təkliflər hazırlanması, xəstəxananın tikintisinin layihələndirilməsi və inşası, tikintinin başa çatdırılması və tibbi xidmətin təşkili yer alıb.

Bu bəndin «Zəngilan, Ağdam rayonlarında və Hadrut qəsəbəsində çoxprofilli modul tipli xəstəxanalar» yarımbəndi artıq icra edilib. Əsas icraçısı İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, digər icraçılar Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, yerli icra hakimiyyəti orqanları, Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi və Türkiyənin Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) olan bu yarımbənd üzrə müvafiq tədbirin icrası çərçivəsində Zəngilanda tikinti işləri 50% tamamlanıb, 2022-ci ilin sonunadək hər 3 modul tipli xəstəxana istifadəyə veriləcək. TİKA ilə əməkdaşlıq çərçivəsində 2 modul tipli xəstəxana üçün tibbi avadanlıq və digər əsas vəsait formasında ianə cəlb olunub, 2022-ci il noyabr ayının sonunadək təhvil verilməsi nəzərdə tutulur.

Növbəti 11 bənd üzrə tədbirlərin əsas icraçısı Səhiyyə Nazirliyi, digər icraçılar Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, yerli icra hakimiyyəti orqanları və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyidir.

2.5.3-cü bənd Rayon Mərkəzi Xəstəxanalarının (RMX) tikintisi və tibbi xidmətin təşkili» adlanır. Buraya RMX tikintisi ilə bağlı təkliflər hazırlanması, 4 RMX-nin tikinti layihəsinin hazırlanması və 6 RMX-nin tikintisinin başa çatdırılması, yekun nəticə olaraq isə 8 RMX-nin tikintisinin başa çatdırılması və orada tibbi xidmətin təşkili daxildir.

«Gigiyena və Epidemiologiya Mərkəzlərinin (GEM) tikintisi və tibbi xidmətin təşkili» adlanan növbəti bənd isə GEM-lərin tikintisi ilə bağlı təkliflər hazırlanmasını, 6 GEM-in tikinti layihəsinin hazırlanması və həyata keçirilməsini, yekun olaraq 8 GEM-in tikintisinin başa çatdırılması və tibbi xidmətin təşkilini nəzərdə tutur. Hər iki tədbir 2022-2026-cı illərdə həyata keçiriləcək.

«Psixiatriya xəstəxanasının tikintisi və tibbi xidmətin təşkili» adlanan 2.5.5-ci bənd bu xəstəxananın tikintisi ilə bağlı təkliflər hazırlanmasını, binanın layihələndirilməsi və tikintisini, eləcə də tikintinin başa çatdırılması və tibbi xidmətin təşkilini ehtiva edir.

Növbəti bəndlə onkologiya xəstəxanasının tikintisi və tibbi xidmətin təşkili planlaşdırılır. Burada onkologiya xəstəxanasının tikintisi ilə bağlı təkliflər hazırlanması, layihələndirilməsi və tikintisi, eləcə də tikintinin başa çatdırılması və tibbi xidmətin təşkili yer alıb.

Daha bir bənd vərəm əleyhinə xəstəxanaların tikintisini və tibbi xidmətin təşkilini nəzərdə tutur. Bu bənddə belə xəstəxanaların tikintisi ilə bağlı təkliflər hazırlanması, onların layihələndirilməsi və tikintisi, son nəticədə isə xəstəxanaların tikintisinin başa çatdırılması və tibbi xidmətin təşkili planlaşdırılır.

*(Davamı 4-cü səhifədə)*

**Noyabr ayında Milli Məclisin payız sessiyasının növbəti plenar iclasları keçirilib.**

# Milli Məclis səhiyyə ilə bağlı qanunlara dəyişikliklər edib

AZƏRTAC-ın verdiyi xəbərə görə, ilk iclasda parlament «Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında» qanun layihəsini birinci oxunuşda müzakirə edib.

Müzakirələrdə Milli Məclisin komitə sədrləri Əhliman Əmiraslanov, Siyavuş Novruzov, Zahid Oruc, Qənirə Paşayeva, Bəxtiyar Əliyev, Tahir Rzayev, Hicran Hüseynova, komissiya sədrləri Eldar İbrahimov, Eldar Quliyev, deputatlar çıxış ediblər. Onlar 2023-cü ilin dövlət büdcəsini müstəqillik tariximizin ən böyük dövlət büdcəsi kimi xarakterizə ediblər. Büdcə layihəsində əvvəlki illərdə olduğu kimi, sosialyönümlü xərclərin artırılması müsbət qiymətləndirilib. Bildirilib ki, tarixdə ilk dəfədir dövlət büdcəsinin həm gəlirləri, həm də xərcləri 30 milyard manatı keçib.

Deputatlar səhiyyəyə, təhsilə, ailə institutunun qorunmasına, qadın və uşaqların müdafiəsinə ayrılan vəsaitlərin artırılmasını təqdir etməklə yanaşı, icbari tibbi sığortanın əhatə dairəsinin genişləndirilməsi, büdcə vəsaitlərinin nəticə yönümlülüyünün yüksəldilməsi kimi məsələlərlə bağlı fikirlərini bölüşüblər, rəy və təkliflərini hökumət üzvlərinin diqqətinə çatdırıblar.

Geniş müzakirələrin sonunda «Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında» qanun layihəsi birinci oxunuşda səsə qoyulub və qəbul edilib.

Sonra iclasda Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) təqdim edib. O bildirib ki, Məcəlləyə müxtəlif istiqamətlər üzrə dəyişikliklər təklif olunur. Bunlardan birincisi investisiya mühitinin, o cümlədən yerli istehsalın təşviqi ilə vergi yükünün azaldılması ilə bağlıdır. Burada ən böyük həcm işğaldan azad edilmiş ərazilər üzrə vergi təşviqlərinin verilməsi barədədir.

İcbari tibbi sığorta fondunun vəsaiti hesabına tibbi xidmətlərin göstərilməsinin ƏDV-dən azad edilməsi müddəti də 2024-cü il yanvarın 1-dək uzadılacaq.

Layihə ilə bağlı Milli Məclisin komitə sədri Zahid Orucun, deputatlardan Azər Badamovun və Bəhruz Məhərrəmovun fikirləri dinlənildikdən sonra sənəd səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

«Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş) haqqında parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov məlumat verib. O bildirib ki, dəyişiklik qanuna 15-21.1-1-ci maddənin əlavə edilməsini nəzərdə tutur. Maddədə bildirilir ki, İcbari Tibbi Sığorta Fondunun büdcəsi hər il üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən təsdiq olunur.

Layihə birinci oxunuşda qəbul edilib.

Sonra komitə sədri Tahir Mirkişili bildirib ki, «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) icmal büdcənin tərkib hissəsi olacaq İcbari Tibbi Sığorta Fondunun gəlir və xərclərinin icmal büdcənin gəlir və xərclərində nəzərə alınması qaydasını müəyyən edir.

Qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Tahir Mirkişili bildirib ki, «Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) nağdsız hesablaşmaların əhatə dairəsinin genişləndirilməsini nəzərdə tutur. Təklif olunan dəyişikliyə əsasən, bu sıraya tibb müəssisələri ilə yanaşı, özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən tibbi xidmətlər üzrə bir əməliyyat çərçivəsində beş yüz manatdan artıq olan ödənişlər də əlavə edilir. Bununla da bütün özəl tibb fəaliyyətinə nağdsız əməliyyatlara münasibətdə eyni hüquqi rejim tətbiq olunur.

Layihə birinci oxunuşda təsdiqlənib.

Milli Məclisin növbəti plenar iclasında 2023-cü ilin dövlət büdcəsi ikinci oxunuşda müzakirə olunub. Qanun layihəsini təqdim edən komitə sədri Tahir Mirkişili bildirib ki, büdcə layihəsində sosialyönümlü xərclər ümumilikdə 1 milyard 289,2 milyon manat artırılaraq 15 milyard 218,9 milyon manata çatdırılıb. Təhsil xərclərinin 4 milyard 423 milyon manat, səhiyyə xərclərinin 1 milyard 906 milyon manat olacağı proqnozlaşdırılır.



İclasda maliyyə naziri Samir Şərifov çıxış edərək, növbəti ilin dövlət büdcəsinin Milli Məclisin komitələrində və plenar iclasda birinci oxunuşda müzakirələri zamanı deputatlar tərəfindən verilən təklif və tövsiyələrin təhlil edildiyini, büdcə xərclərinin artırılması ilə bağlı təkliflər üçün əlavə maliyyə təminatının yaradılmasına 2023-cü il və sonrakı 3 ildə makroiqtisadi sabitliyin qorunub saxlanması, makrofiskal uyğunluğun təmin edilməsi baxımından yanaşıldığını bildirib. Nazir vurğulayıb ki, növbəti ilin dövlət büdcəsi layihəsində həssas və aztəminatlı əhalinin sosial müdafiəsi, elm, təhsil, səhiyyə, sosial təminat sahələrində islahatların davam etdirilməsini təmin edən proqram və tədbirlər üçün maliyyə təminatı yaradılıb.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

«Tibbi sığorta haqqında» Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov məlumat verib. Komitə sədri bildirib ki, qanun layihəsinin birinci oxunuşundan sonra sənədlə bağlı komitəyə əlavə, təklif və irad daxil olmayıb. O, deputatlardan qanun layihəsini ikinci oxunuşda da dəstəkləməyi xahiş edib.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

«Büdcə sistemi haqqında» Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verib. O, bildirib ki, «Tibbi sığorta haqqında" Qanuna əsasən, icbari tibbi sığorta fondunun yaradılması nəzərdə tutulub. İcbari tibbi sığorta fondu büdcədənkənar fond olduğu üçün bu qanun layihəsi onun gəlir və xərclərinin icmal büdcənin gəlir və xərclərində nəzərə alınması qaydasını müəyyən edir.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

«Nağdsız hesablaşmalar haqqında» Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumatı da komitə sədri Tahir Mirkişili təqdim edib. O, deyib ki, mövcud qanunvericiliyə əsasən, tibb müəssisələrində tibbi xidmətlər üzrə bir əməliyyat çərçivəsində beş yüz manatdan artıq olan ödənişlər nağdsız qaydada həyata keçirilir. Bu qanun layihəsi tibb müəssisələri ilə yanaşı, özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən tibbi xidmətlər üzrə də eyni müddəanın təsbit olunmasını özündə ehtiva edir. Bununla da bütün özəl tibb fəaliyyətinə (hüquqi şəxs yaradıb-yaratmamasından asılı olmayaraq) nağdsız əməliyyatlara münasibətdə eyni hüquqi rejim tətbiq olunur.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin payız sessiyasının növbəti plenar iclasında Azərbaycan Respublikasının Vergi Məcəlləsində, «Sosial sığorta haqqında», «Bələdiyyələrin maliyyəsinin əsasları haqqında», «Tibbi sığorta haqqında» və «Daşınar əmlakın yüklülüyü haqqında» qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə üçüncü oxunuşda baxılıb.

Qanun layihəsini təqdim edən komitə sədri Tahir Mirkişili bildirib ki, adıçəkilən qanunlara təklif olunan dəyişikliklər vergitutma məqsədi ilə davranışların dəqiqləşdirilməsi ilə bağlıdır. Sənəd Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında 3 dekabr 2021-ci il tarixli Qanuna uyğun olaraq hazırlanıb.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov sənəd barədə bu komitələrin müsbət rəy verdiyini söyləyiblər.

Qanun layihəsi üçüncü oxunuşda səsə qoyularaq qəbul edilib.

# Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı

*(Əvvəli 3-cü səhifədə)*

Regional Perinatal Mərkəzinin tikintisini və tibbi xidmətin təşkilini nəzərdə tutan bənd tikinti ilə bağlı təklif hazırlanması, Mərkəzin layihələndirilməsi və tikintisi, tikintinin başa çatdırılması və tibbi xidmətin təşkili kimi dövrləri əhatə edir.

Bu dörd bənd 2024-2026-cı illərdə icra ediləcək.

«Təcili tibbi yardım stansiyalarının (TTYS) tikintisi və tibbi xidmətin təşkili» adlanan 2.5.8-ci bənd gələn ildən həyata keçirilməyə başlayacaq. 2026-cı ilədək davam edəcək bəndə görə TTYS-lərin tikintisi ilə bağlı təkliflər hazırlanması, 3 stansiyanın layihələndirilməsi və tikintisi, yekunda tikintinin başa çatdırılması və tibbi xidmətin təşkili nəzərdə tutulur.

Fəaliyyət istiqamətinin növbəti dörd bəndində Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin (MTEPAB) rayon şöbələrinin, Regional Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzinin, QİÇS-lə Mübarizə Mərkəzinin və Narkoloji dispanserin tikintisi və tibbi xidmətin təşkili planlaşdırılır. Hər bir bənd üzrə işin mərhələləri - təkliflər hazırlanması, layihələndirilmə və tikinti, tikintinin başa çatdırılması və tibbi xidmətin təşkili müddəti müəyyən edilir. MTEPAB-la bağlı bənd 2022-2026-cı, qalan 3 bənd 2023-2026-cı illəri əhatə edir.

Tədbirlər Planının «Hərbi hospitalların tikintisi və tibbi xidmətin təşkili» adlanan növbəti - 2.5.14-cü bəndinin əsas icraçısı Müdafiə Nazirliyi, digər icraçılar isə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Dövlət Sərhəd Xidməti, Daxili İşlər Nazirliyi və Səhiyyə Nazirliyidir. Yekun nəticə olaraq 1 ədəd 182 çarpayılıq və 1 ədəd 80 çarpayılıq hərbi hospitalın tikintisinin başa çatdırılması və tibbi xidmətin təşkili nəzərdə tutulur.

Fəaliyyət istiqamətinin növbəti üç tədbirinin də əsas icraçısı Səhiyyə Nazirliyi müəyyən edilib. Bunlardan biri ərazilərdə psixo-sosial reabilitasiya, o cümlədən köçürüləcək şəxslərin əvvəlcədən tibbi yoxlanışdan keçirilməsi üçün tədbirlərin təşkilidir (2022-2026). Müvafiq sahədə təkliflər hazırlanmasının və həyata keçirilməsinin yekun nəticəsi geri qayıdan şəxslərin reabilitasiyası olacaq. Tədbirin icrası Səhiyyə Nazirliyi ilə yanaşı, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə, Fövqəladə Hallar Nazirliyinə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, yerli icra hakimiyyəti orqanlarına, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə, Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinə və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinə həvalə olunub.

Mərkəzi Qan Bankının regional bölməsinin tikintisi bəndi (2023-2026) Səhiyyə Nazirliyi ilə yanaşı, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, yerli icra hakimiyyəti orqanlarına və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinə tapşırılıb. Tədbir illər üzrə tikinti ilə bağlı təklif hazırlanması, layihələndirilmə və tikinti, tikintinin başa çatdırılması kimi mərhələlərə bölünüb.

Tədbirlər Planının Səhiyyə Nazirliyinə aid olan son bəndi «Sanatoriyaların və düşərgələrin tikintisi» adlanır. Bu müəssisələrin tikintisi ilə bağlı təkliflər hazırlanmasına, onların layihələndirilməsi və tikintisinə tədbirin əsas icraçısı olan Səhiyyə Nazirliyindən başqa, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, yerli icra hakimiyyəti orqanları, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası da cəlb ediləcək.

# Bakıda «Medinex» və «Beauty Azerbaijan» sərgiləri keçirilib




**Bakı Ekspo Mərkəzində «Medinex» Azərbaycan Beynəlxalq Tibb İnnovasiyaları və «Beauty Azerbaijan» Azərbaycan Beynəlxalq Gözəllik İndustriyası sərgiləri keçirilib.**

Sərginin açılışında Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev, Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru Vüqar Qurbanov, sərgilərin təşkilatçısı Caspian Event Organisers (CEO) şirkətinin baş direktoru Fərid Məmmədov iştirak ediblər.

Açılış mərasimində çıxış edən **səhiyyə naziri Teymur Musayev** vurğulayıb ki, Azərbaycanda səhiyyənin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Ölkəmizdə tibbi sərgilərin keçirilməsinin bu inkişafla sıx əlaqəyə malik olduğunu söyləyən nazir builki sərgini «otuz ildən artıq müddət ərzində keçirilən




tədbirlərin davamı olan daha bir müsbət hadisə» adlandırıb.

Teymur Musayev vurğulayıb ki, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın əhalinin sağlamlığının qorunmasına göstərdikləri diqqət və qayğının nəticəsində ölkəmizdə müasir səhiyyə infrastrukturu obyektləri inşa edilir, tibb müəssisələri ən son texnoloji avadanlıqlarla təchiz olunur və maddi-texniki baza gücləndirilir. Eyni zamanda, tibb mütəxəssislərimiz əhalinin sağlamlığının qorunmasına yönəlik fəaliyyətlərində peşəkarlığın artırılmasına xüsusi yer ayırır, bilik və bacarıqlarını səhiyyənin daim yenilənən tələblərinə uyğunlaşdırmaq üçün tibb sektorundakı dəyişiklikləri, yeni tendensiyaları və texnologiyaları yaxından izləyirlər.

Ölkə rəhbərliyi tərəfindən Səhiyyə Nazirliyinin qarşısında müəyyən olunan əsas vəzifələrdən danışan Teymur Musayev deyib: «Nazirliyin əsas vəzifələrindən biri də milli səhiyyə sistemində tibb elminin nailiyyətlərinin tətbiqini təmin etməkdir. Bu baxımdan, Səhiyyə Nazirliyi innovativ məhsulların tibb ictimaiyyətinə tanıdılmasına, mütəxəssislərin müasir trendləri izləməsinə, elmi-texniki nailiyyətlərin tətbiqinə imkan yaradan sərgilərin təşkilini yüksək qiymətləndirir və dəstəkləyir».

Səhiyyə sektorunun qlobal miqyasda ən sürətlə inkişaf edən sahələrdən olduğunu söyləyən nazir vurğulayıb ki, bugünkü şəraitdə uğur qazanmaq üçün keyfiyyətli məhsulların yalnız istehsalı və bazara çıxardılması kifayət etmir. Tibbi məhsulların tanıdılması da eyni dərəcədə əhəmiyyətlidir. O əlavə edib ki, COVID-19 pandemiyası hər bir ölkənin özünü tibbi məhsullarla təmin edə bilməsinin strateji məsələ olduğunu önə çıxartdı. Bu baxımdan, bu sərgidə qurulan işgüzar əlaqələr, investisiya imkanlarının artması əhəmiyyətlidir və ölkə əhalisinin ümumi sağlamlığının yaxşılaşmasına müsbət təsir göstərəcək.

«Medinex» sərgisinin həm tibb mütəxəssislərinin yeniliklərlə tanışlığı, həm biznes nümayəndələri arasında qarşılıqlı əlaqələrinin inkişafı, eyni zamanda, hər bir vətəndaşımızın sağlamlığının yaxşılaşdırılması sahəsində davamlı platforma rolunu oynayacağını və növbəti illərdə yerli istehsal olan tibbi məhsullar və avadanlıqların sayının artırılacağını bildirən Teymur Musayev deyib: «Səhiyyə naziri olaraq bir təşəbbüs irəli sürmək istərdim. 2023-cü ildə səhiyyə və tibb elmi sahəsində nüfuzlu beynəlxalq elmi nəşrlərin tanıdılmasına həsr olunan sərginin təşkilini təklif edirəm. Səhiyyə Nazirliyi belə bir sərginin təşkili üçün hər cür dəstək göstərməyə hazırdır».

**Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov** belə sərgilərin imkanlarının çox geniş olduğunu qeyd edib. «Bu layihə tibb sahəsinin həm təcrübəli, həm də gənc mütəxəssisləri, ixtisaslaşdırılan təhsil müəssisələrinin rezidentləri və tələbələri üçün çox vacibdir. Əlbəttə ki, sərgi çərçivəsində keçirilməsi nəzərdə tutulan praktiki və elmi tədbirlər gənc mütəxəssislərin inkişafında və yeni biliklərə yiyələnməsində mühüm rol oynaya bilər. Mən sərgidə yerli tibbin inkişafının mühüm tərkib hissəsi olan müasir informasiya texnologiyaları və tibbi proqramların nümayişini xüsusi olaraq qeyd etmək istərdim», — deyə o bildirib.

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev** qeyd edib ki, bu gün səhiyyə sahəsində aparılan əsas islahatlardan biri də ölkədə icbari tibbi sığortanın tətbiqidir. «Ötən ildən başlanan bu proses bütün növ tibbi xidmətlərin əhaliyə əlçatan edilməsi üçün nəzərdə tutulub. «Medinex» sərgisi icbari tibbi sığorta haqqında məlumatların ölkəmizin geniş vətəndaş kütləsinə çatdırılmasına imkan verən, ölkədəki dövlət və özəl tibb müəssisələri arasında əməkdaşlığın qurulmasına şərait yaradan platformalardan biridir. Biz sərgidə təqdim olunan yenilikləri maraqla öyrənəcəyik, çünki bu, gələcəkdə onların bizim gündəlik işimizdə tətbiq edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir», — deyə Z.Əliyev öz nitqini yekunlaşdırıb.

**TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov** ölkədə səhiyyənin inkişafının əsas istiqamətləri, o cümlədən ölkə vətəndaşlarının sağlamlığının qorunması, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi, səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi və tibb işçilərinin peşə hazırlığının təkmilləşdirilməsi, tibb sahəsində innovasiyaların tətbiqi haqqında ümumiləşdirilmiş məlumat verib. Qeyd edib ki, bu sərgi Xəzər regionunda tibb mütəxəssislərini bir araya gətirən ən böyük tədbirdir və tibb sahəsində yeni məhsulların və texnologiyaların geniş şəkildə təqdim olunmasını əsas məqsəd kimi öz qarşısına qoyur. Vüqar Qurbanov sərgi iştirakçılarının işgüzar əməkdaşlıq qurmaqla yanaşı, böyük təcrübə və yeni biliklər qazanacaqlarına əminliyini ifadə edib.

**CEO şirkətinin baş icraçı direktoru Fərid Məmmədov** qeyd edib ki, «Medinex» sərgisi uzun illər ərzində keçirilən «BIHE» tibb sərgisi əsasında yaradılan yeni bir brenddir və o, səhiyyə sahəsində keçirilən tədbirlər kompleksində mühüm yer tutur. Fərid Məmmədov sərgi ilə bağlı statistik məlumat verib, layihəni dəstəkləyən bütün səhiyyə idarələrinə öz təşəkkürünü bildirib və bu sərginin gələcəkdə daha da inkişaf etdirilməsi üçün perspektivlərin olduğunu vurğulayıb.

Sərgiyə baxış keçirən qonaqlar, yerli tibb sektorunun tanınan nümayəndələri ekspozisiyanı, ictimaiyyətin yeniliklər barədə məlumatlandırılmasında, müasir tendensiyaların öyrənilməsində, müasir səhiyyə nailiyyətlərinin praktiki tətbiqində onun oynadığı rolu yüksək qiymətləndiriblər.

Qeyd edək ki, «Medinex» səhiyyə mütəxəssislərini bir araya gətirən, işgüzar əlaqələri gücləndirmək və satış coğrafiyasını genişləndirmək üçün fürsət olan biznes platformasıdır. Burada aparıcı yerli və xarici istehsalçılar və distribütorlar ölkə klinikalarının təkmilləşdirilməsinə və müalicənin effektivliyinin artırılmasına kömək etmək üçün öz yeni məhsul və xidmətlərini təqdim ediblər. Koronavirus pandemiyasının yaratdığı uzun fasilədən sonra yenidən ənənəvi formatda keçirilən sərgilərdə sənaye mütəxəssisləri işgüzar əlaqələri bərpa etmək və yeni əlaqələr qurmaq, aktual məlumatlar əldə etmək və sərfəli müqavilələr bağlamaq üçün iki ildən sonra ilk dəfə yenidən görüşüblər.




Sərgilərin birləşmiş ekspozisiyası dünyanın 12 ölkəsindən, o cümlədən Azərbaycan, Belarus, Danimarka, İsveçrə, İtaliya, Pakistan, Qazaxıstan, Rusiya, Sloveniya, Türkiyə, Yaponiya və Əlcəzairdən 90-dan çox şirkəti bir araya gətirib.

«Medinex» sərgisində tibbi avadanlıq, tibbi məhsullar, tibbi turizm, tibbi təhsil, dərmanlar, vitaminlər və pəhriz əlavələri, innovativ laboratoriya avadanlıqları, optika, stomatologiya, tibbdə informasiya texnologiyaları və s. təqdim olunub.

Sərginin işgüzar proqramında «Xəstəliklərin diaqnostika və müalicəsində innovativ yanaşma» «Diaqnostikada yeni nəsil sistemlər və kliniki faydaları», «Pediatriyada müasir diaqnostika və müalicə metodları», «Tibbdə innovativ texnologiyalar», «İnnovativ dərman vasitələri» və bir sıra başqa panel müzakirələri aparılıb. Həmçinin yerli və xarici sahibkarların ənənəvi olaraq iştirak etdiyi işgüzar B2B görüşləri keçirilib.

«Medinex» sərgisi çərçivəsində tibbin müxtəlif sahələrindən mütəxəssislərin iştirakı ilə işgüzar tədbirlər təşkil olunub. Psixiatr və psixoloqların elmi əsaslı təcrübə naminə assosiasiyasının təsisçisi, sərgiyə xüsusi olaraq dəvət edilmiş həkim-psixiatr Yelisey Osin psixiatrlar, nevroloqlar və valideynlər üçün «Autizmin diaqnostikası və terapiyası – texnologiyalar» mövzusunda çıxış edib.

# Səhiyyə Nazirliyində Belarus nümayəndə heyəti ilə görüş olub

**Səhiyyə Nazirliyində Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Andrey Ravkovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə Belarusun əczaçılıq sənayesinin aparıcı müəssisələrinin nümayəndələri də iştirak ediblər.**

Səhiyyə Nazirliyinin mətbuat xidməti bildirir ki, səhiyyə naziri Teymur Musayev son illərdə Azərbaycan və Belarus arasında bir çox sahələrdə əlaqələrin genişləndiyini vurğulayıb. Nazir qeyd edib ki, dövlət başçılarının müntəzəm görüşləri, eyni zamanda, hökumət üzvlərinin qarşılıqlı səfərləri iki ölkə arasında müxtəlif istiqamətlərdə, o cümlədən səhiyyə sahəsində münasibətlərin inkişafında mühüm rol oynayır.



Nazir ölkələrimiz arasında səhiyyə sahəsində səmərəli əməkdaşlığın səviyyəsindən məmnunluğunu ifadə edib: «Tibbin onkologiya, transplantologiya, kardiologiya, neyrocərrahiyyə və digər sahələrində çalışan mütəxəssis və həkimlərə təcrübə mübadiləsi və ixtisasartırma üzrə tədbirlərdə iştirak etmək üçün qarşılıqlı səfərlər təşkil olunur. Sevindirici haldır ki, bu illər ərzində iki ölkənin tibb mütəxəssisləri arasında nəinki möhkəm işgüzar əlaqələr, həmçinin dostluq münasibətləri təşəkkül tapıb».

Ölkələrimiz arasında əczaçılıq sahəsində uğurlu əməkdaşlığın olduğunu vurğulayan nazir əczaçılıq sənayesinin bütün dünyada innovativ inkişaf baxımından mühüm yer tutduğunu bildirib: «Bundan əlavə, əczaçılıq sənayesi gələcəyin iqtisadiyyatının əsas sahələrindən biridir, çünki yüksək keyfiyyətli təbabət və millətin sağlamlığı hər bir ölkənin uğurlu sosial-iqtisadi inkişafının mühüm tərkib hissəsidir».

Sonda Teymur Musayev əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə ümidvar olduğunu qeyd edib.

Öz növbəsində Andrey Ravkov Belarusun Azərbaycanla əlaqələrin inkişafına xüsusi önəm verdiyini bildirib: «Son dövrlərdə Belarusla Azərbaycan arasında əməkdaşlıq müsbət dinamika ilə inkişaf edir. İki ölkənin münasibətləri ötən dövr ərzində uğurla inkişaf edərək strateji əməkdaşlıq və tərəfdaşlıq səviyyəsinə yüksəlib».

Belarusda əczaçılıq sənayesinin sistemli və dinamik şəkildə inkişaf etdiyini vurğulayan səfir ölkəsinin birgə müəssisə yaradılmasında maraqlı olduğunu qeyd edib: «Bakıda keçirilən «Medinex» Beynəlxalq Tibb İnnovasiyalar Sərgisində ölkəmiz özünün əczaçılıq sahəsində aparıcı müəssisələrinin daxil olduğu böyük milli ekspozisiya ilə təmsil olunur. Biz Azərbaycanda əczaçılıq sənayesinin inkişafında iştirak etmək istəyirik və buna hazırıq».

Öz növbəsində Belarusun aparıcı əczaçılıq müəssisələrinin nümayəndələri Azərbaycana təkcə hazır dərman preparatlarının ixracında deyil, həm də bu sahənin inkişafında mütəxəssislərin hazırlanmasında kömək göstərməyə hazır olduqlarını deyiblər.

Konstruktiv və qarşılıqlı anlaşma mühitində keçən görüşdə tərəflər dərman istehsalı üzrə əməkdaşlığın gücləndirilməsinin yeni perspektivlərini müzakirə ediblər.

# Azərbaycanla Macarıstan arasında əczaçılıq sahəsində əməkdaşlığın inkişaf imkanları müzakirə olunub



**Səhiyyə Nazirliyində əczaçılıq sahəsi üzrə fəaliyyət göstərən Macarıstan şirkətləri təmsilçilərindən ibarət nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə həmçinin Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Tamaş Yojef Torman da iştirak edib.**

Səhiyyə Nazirliyinin mətbuat xidməti bildirir ki, görüşdə səhiyyə naziri Teymur Musayev ölkələrimiz arasında bir çox sahələrdə geniş əməkdaşlıq əlaqələrinin mövcud olduğunu diqqətə çatdırıb. Nazir çıxışında innovasiyaların iqtisadi və sosial inkişafın əsas təkanverici qüvvəsi olduğunu vurğulayıb. Onun sözlərinə görə, bu gün səhiyyədə innovativ yanaşma və innovasiyaların tətbiqi zamanın tələbidir.

Bildirilib ki, əczaçılıq sənayesi dünya iqtisadiyyatının ən çox bilik tələb edən yüksək texnologiyalı, eyni zamanda, sürətlə inkişaf edən seqmentlərindən biridir. Macarıstanın əczaçılıq məhsullarının hər zaman yüksək keyfiyyətinə görə seçildiyini vurğulayan nazir ikitərəfli münasibətlərin bundan sonra da uğurlu və dinamik inkişaf edəcəyinə ümidvar olduğunu bildirib.

Sonra əczaçılıq sahəsi üzrə fəaliyyət göstərən Macarıstan şirkətlərinin nümayəndələri öz məhsulları haqqında ətraflı məlumat veriblər. Onlar Azərbaycanla əczaçılıq sənayesi sahəsində əməkdaşlığın daha yüksək səviyyəyə yüksəlməsində maraqlı olduqlarını vurğulayıblar.

Qarşılıqlı anlaşma mühitində keçən görüş zamanı əczaçılıq sahəsində əməkdaşlığın mövcud vəziyyəti və potensial inkişaf imkanları müzakirə olunub.



# Səhiyyə Nazirliyində İsrail şirkətinin rəhbərləri ilə görüş olub

**Azərbaycan Səhiyyə Nazirliyində İsrailin tibbi məhsulların istehsalı üzrə aparıcı şirkətlərindən biri olan «BioPharmax» şirkətinin rəhbər şəxsləri ilə görüş keçirilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidməti bildirir ki, səhiyyə naziri Teymur Musayev ölkələr arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğulayıb, səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın nümunəvi olduğunu qeyd edib: «İsrail yüksək səviyyəli təhsil və səhiyyə sisteminə malik ölkələrdən biridir. Bunu əsas tutaraq, səhiyyə sahəsində əməkdaşlıqdan məmnunuq. Eyni zamanda, səhiyyədə yüksək texnologiya sahələrində – virusologiya, mikrobiologiya və digər istiqamətlərdə əməkdaşlığımız konstruktivdir».

Ölkələr arasında əczaçılıq sahəsində əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan nazir İsraildə güclü əczaçılıq sənayesinin yaradıldığını, elmi tədqiqat bazasının inkişaf etdirildiyini, dərman vasitələrinin istehsalı sahəsində innovasiyaların tətbiq olunduğunu diqqətə çatdırıb.

Sonda Teymur Musayev əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirib.

Səmimi qarşılanmaya görə minnətdarlığını bildirən «BioPharmax» şirkətinin vitse-prezidenti Yossi Tzabari təmsil etdiyi şirkətin tibbi təhsil, səhiyyənin rəqəmsal transformasiyası və digər sahələrdə Azərbaycan Səhiyyə Nazirliyi ilə əməkdaşlıqda maraqlı olduğunu vurğulayıb. Eyni zamanda, yüksək keyfiyyətli tibbi avadanlıqlar sənayesinin Azərbaycanda istifadəsinin müstəsna əhəmiyyət kəsb etdiyini bildirib.

Görüşün sonunda tərəflər əməkdaşlığı inkişaf etdirmək barədə müzakirə aparıblar.

# Azərbaycan Səhiyyə Nazirliyi və Rusiya Federal Xidməti arasında sazişlər imzalanıb



**Azərbaycan Respublikası Səhiyyə Nazirliyində Rusiya Federasiyası İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahı sahəsində Nəzarət üzrə Federal Xidmətinin («Rospotrebnadzor») ölkəmizdə səfərdə olan rəhbəri Anna Popovanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən bildirilir ki, səhiyyə naziri Teymur Musayev ölkələrimiz arasında səhiyyə və tibb elmi sahəsində səmərəli əməkdaşlıq olduğunu vurğulayıb. Bildirib ki, 100 illiyini qeyd edən, təcrübəsi və peşəkar ənənələri ilə tanınan Rusiya epidemiologiya məktəbi dünyada öncül yerlərdən birini tutur.

COVID-19 infeksiyası ilə mübarizə mövzusuna toxunan Teymur Musayev rusiyalı mütəxəssislərin dəyərli tövsiyələrinin ölkəmizdə epidemioloji vəziyyətin sabitləşməsinə öz töhfəsini verdiyini vurğulayıb. Sonda Azərbaycan səhiyyə naziri ikitərəfli münasibətlərin bundan sonra da dinamik inkişaf edəcəyinə ümidvar olduğunu söyləyib.

Səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlığını bildirən Anna Popova Rusiyanın bir neçə nazirlik və idarəsinin funksiyalarını birləşdirən dövlət xidmətinin fəaliyyəti haqqında ətraflı məlumat verib. O, rəhbərlik etdiyi qurumun Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə əməkdaşlığın daha yüksək səviyyəyə qaldırılmasında maraqlı olduğunu deyib.

Konstruktiv və qarşılıqlı anlaşma şəraitində keçən görüş zamanı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Rusiya Federasiyasının İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahı sahəsində Nəzarət üzrə Federal Xidməti arasında bu gün imzalanan «Taunun sərhədyanı təbii ocaqları olan ərazilərdə epidemioloji salamatlığın təmin olunması haqqında» və «Beynəlxalq tibbi-sanitariya qaydalarının (2005-ci il) tətbiqi sahəsində əməkdaşlıq haqqında» sazişlərin ölkələrimiz arasında sektorlararası əməkdaşlığın inkişafında mühüm rol oynayacağı vurğulanıb.

# Səhiyyə Nazirliyinin rəhbərliyi Vətən müharibəsində şəhid olmuş həkimlərimizin məzarlarını ziyarət edib

*Vətən müharibəsində 159 tibb işçisi yaralanıb, 42 tibb işçisi şəhid olub*

Azərbaycanın çoxəsrlik tarixinə qızıl hərflərlə yazılan, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən Zəfər Günü Müzəffər Ali Baş Komandan İlham Əliyevin





sərkərdəliyi, qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin qanı və canı bahasına qazanılıb. Xalqımız və rəşadətli Ordumuz 44 gündə şanlı tarix yazaraq 30 illik işğala son qoyub, ərazi bütövlüyümüzü bərpa edib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən xəbərə görə, Böyük Qələbə Gününün ikinci ildönümü ərəfəsində səhiyyə naziri Teymur Musayev və nazirliyin kollegiya üzvləri İkinci Fəxri xiyabanda Vətən müharibəsi şəhidlərinin məzarlarını ziyarət ediblər.

Ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş həkim və tibb işçilərinin əziz xatirəsi anılıb, məzarları üzərinə tər güllər düzülüb, ruhlarına dualar oxunub.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsində 159 hərbi tibb işçisi müxtəlif dərəcəli bədən xəsarəti alıb. 44 tibb işçisi – 11 həkim, 7 feldşer və 26 tibbi təlimatçı qəhrəmancasına şəhid olub.

**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**

# Səhiyyə naziri Teymur Musayev: «Vətən müharibəsində Azərbaycanın tibb işçiləri əsl qəhrəmanlıq nümayiş etdirdilər»

**Vətən müharibəsində qələbəmizin ikinci ildönümünə həsr olunmuş tədbirin iştirakçıları əvvəlcə Azərbaycan Tibb Universitetində şəhid məzunların xatirəsinə ucaldılmış abidə kompleksinin önünə güllər düzüblər.**

Toplantının əvvəlində Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban vermiş qəhrəmanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə giriş sözü ilə çıxış edən **səhiyyə naziri Teymur Musayev** vurğulayıb ki, Zəfər Günü 44-günlük Vətən müharibəsində xalqımızın birliyinin rəmzi, Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı altında rəşadətli ordumuzun parlaq qələbəsinin simvoludur: «Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər var ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən biri də şücaət və qəhrəmanlıq salnaməsi olan Zəfər Günüdür. Hər bir azərbaycanlının qürur və fəxr mənbəyi olan bu gün milli ləyaqətimizi özümüzə qaytardı, başımızı dik tutmağa imkan verdi».

Nazir bildirib ki, ərazilərimizin işğaldan azad edilməsi məqsədilə aparılan əks-hücum əməliyyatları ölkə səhiyyəsinin də üzləşdiyi ciddi sınaq oldu: «Qırx dörd günlük Vətən müharibəsində yaralananların həyatı uğrunda savaşda bütün tibb işçiləri səfərbər oldular, vəzifə borclarını peşəkarcasına, ləyaqətlə, vicdanla yerinə yetirdilər. Azərbaycanın tibb işçiləri əsl qəhrəmanlıq və öz peşələrinə sədaqət nümayiş etdirdilər. Həm hərbi, həm də mülki həkimlər ön və arxa cəbhədə yüzlərlə yaralı hərbçimizin həyatının xilası, onların tam sağalması, normal həyata qayıtması uğrunda əzmkarlıqla vuruşdular və hazırda da bunu davam etdirirlər. Həkimlər və orta tibb işçiləri paytaxt və regionlarda yerləşən tibb müəssisələrində gecə-gündüz əməliyyatxanalardan çıxmadılar, bununla yanaşı, Vətənin çağırışı ilə könüllü olaraq cəbhə bölgəsinə də getdilər. Onların arasında qadın həkimlər və tibb bacıları da var idi. Hə-




yatlarını təhlükəyə ataraq güllə və mərmi yağışları altında təcili yardım maşınlarında yaralıları xəstəxanalara çatdıran, cəbhə bölgəsində çətin şəraitdə yaralılara ilkin tibbi yardım göstərən, hətta mürəkkəb əməliyyatlar icra edən, həyatları xilas edən hər bir igid tibb işçisinə minnətdarlığımı bildirirəm.

Öz vəzifə borcunu yerinə yetirən həkimlər və digər tibb işçiləri arasında, təəssüf ki, şəhid olanlar və yaralananlar oldu. Doqquz həkim, 7 feldşer, 26 tibbi təlimatçı hərbçilərin sağlamlığını qorumaq üçün nəcib vəzifələrini yerinə yetirərkən şəhidlik zirvəsinə ucaldı. Şəhid tibb işçilərinin xatirəsi daim bizim üçün əzizdir. Əksəriyyəti Tibb Universitetinin məzunları olan həmin şəhid həkimlərin xatirəsi, nə yaxşı ki, burada əbədiləşdirilib və həmişə yad ediləcək».

T.Musayev vurğulayıb ki, yaralı əsgər və zabitlərimizin sağlamlıqlarının bərpası zamanı son dövrlərdə ölkə səhiyyəsinin inkişafı, onun maddi-texniki bazasının gücləndirilməsi, kadr potensialının möhkəmləndirilməsi üçün görülən işlərin böyük rolu olub. O bildirilib ki, paytaxtda və regionlarda yeni tibb müəssisələrinin açılması, xüsusilə cəbhəyanı bölgələrdə ən müasir tibbi avadanlıqlarla təchiz olunmuş rayon mərkəzi xəstəxanaları, müalicə-diaqnostika mərkəzlərinin yaradılması lazımi məqamda yaralılara yardım göstərilməsi üçün vaxtında atılmış zəruri addım idi.

Səhiyyə nazirinin sözlərinə



görə, müharibə dövründə və ondan sonra yaralıların həyatı və sağlamlığı uğrunda mübarizədə digər tibb işçilərinin sırasında Azərbaycan Tibb Universiteti, onun klinikaları, professor-müəllim heyəti, əməkdaşları, rezidentləri və tələbələri də var qüvvə ilə çalışdılar, əllərindən gələni əsirgəmədilər, öz vəzifə və vətəndaşlıq borclarını ləyaqətlə yerinə yetirdilər: «ATU-da işləyən 50-dən çox həkim və orta tibb işçisi Tədris Cərrahiyyə Klinikasında, eləcə də cəbhə bölgəsinə yaxın tibb müəssisələrində yüzlərlə yaralı hərbçimizə tibbi yardım göstərib. ATU-nun Tədris Cərrahiyyə Klinikasında 550 nəfərdən çox qazi stasionar, 250 nəfərdən çoxu ambulator müalicə alıb. İrihəcmli rekonstruktiv cərrahi əməliyyatlar, endoprotezlərin qoyulması, dəri və əzələ plastikaları, üz cərrahiyyəsi, oftalmoloji, neyrotravmatoloji, uroloji və s. sahələrdə ciddi əməliyyatlar icra olunub.

Bundan başqa, qazilərə psixoloji dəstək, nevropatoloq müayinə və müalicəsi də göstərilib. Mən böyük fədakarlıqla hər bir xəstənin, yaralının həyatı uğrunda əlindən gələni əsirgəməyən bütün tibb işçilərinə minnətdarlığımı bildirirəm».

Tədbirdə çıxış edən **ATU-nun rektoru professor Gəray Gəraybəyli** Vətən müharibəsində Azərbaycan əsgərinin göstərdiyi xüsusi qəhrəmanlığın müasir hərb tarixinə qızıl hərflərlə yazıldığını bildirib: «Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu torpaqlarımızı qarış-qarış, kənd-kənd azad etdi və 8 noyabr Azərbaycan tarixinə Qələbə günü kimi daxil oldu. Həmin gün Qarabağın tacı Şuşa işğaldan azad edildi. Uzun illərdən sonra doğma torpaqlarımızda üçrəngli bayrağımız ucaldıldı. 44 günlük Vətən müharibəsi zamanı Türkiyənin Azərbaycana verdiyi güclü siyasi və mənəvi dəstək Türkiyə - Azərbaycan qardaşlığının bariz nümunəsi oldu.

Təəssüf ki, Zəfərimiz bizə itkisiz, xəsarətsiz başa gəlmədi. Savaş meydanında yüzlərlə Azərbaycan gənci canını, sağlamlığını qurban verməli oldu.

Müharibədə şəhid olmuş 18 hərbi həkim və feldşer Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinin yetirmələridir. Onlar əllərinə silah almasalar da, bu müharibənin cəsarətli döyüşçüləri olublar. Öz həyatlarını təhlükə altına ataraq yaralılara qulluq ediblər və qəhrəmanlıqla şəhid olublar.

Xalqımız mərdlik göstərən tibb işçilərinin xatirəsini heç zaman unutmayacaq.

ATU-nun məzunları, əməkdaşları, həkim və tibb işçilərinin Vətən müharibəsi zamanı və sonrakı dövrdə qazilərin reabilitasiyası və müalicəsində göstərdikləri peşəkar yardımları və xüsusi xidmətləri xalqımız tərəfindən yüksək qiymətləndirilir. 44 günlük qəhrəmanlıq savaşımız tarix boyu şanlı qürur mənbəyimiz olaraq qalacaq».

Sonra «Qan yaddaşımız» və «Zəfər tarixçəsi» videoçarxları nümayiş olunub.

Sonda ATU tələbələrinin ifasında musiqi nömrələri səsləndirilib, «Şəhid anası» tamaşası təqdim edilib.

# Səhiyyə Nazirliyində Böyük Britaniyanın ölkəmizdəki səfiri ilə görüş keçirilib

**Səhiyyə Nazirliyində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Fergus Auld ilə görüş olub.**

Səhiyyə Nazirliyinin mətbuat xidməti bildirir ki, qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev Fergus Auldu Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfiri vəzifəsinə təyin olunması münasibətilə təbrik edib. Nazir Azərbaycan yanın tibb universitetləri təhsilin keyfiyyəti və yüksək ixtisaslı mütəxəssislərin hazırlanması ilə məşhurdur. Belə ki, bu ölkənin üç tibb məktəbi dünyanın ən yaxşı tibb universitetlərinin ilk onluğundadır».

Nazir gələcəkdə tibb elmi və digər sahələrdə əməkdaşlığın daha da uğurla inkişaf etdiriləcəyinə ümidvar olduğunu söyləyib.

Öz növbəsində səfir Fergus Auld Böyük Britaniyanın Azərbaycanla münasibətlərin inki-




– Böyük Britaniya münasibətlərinin dinamik inkişaf tendensiyasına malik olduğunu, ölkələrimiz arasında bir çox sahəni ehtiva edən çoxşaxəli rasional münasibətlərin mövcudluğunu vurğulayıb.

Teymur Musayev Böyük Britaniyada səhiyyə sektorunun çox yüksək səviyyədə olduğunu, bu ölkənin səhiyyə sisteminin (National Health Service – NHS) isə dünyada ən səmərəli təşkil edildiyini deyib: «Britaniya səhiyyəsi innovativ avadanlıqların klinik praktikaya tətbiqi və tibb işçilərinin yüksək peşə hazırlığı ilə seçilir. Bundan əlavə, Böyük Britani-

şafına xüsusi diqqət yetirdiyini qeyd edib. Onun sözlərinə görə, dost ölkələrin səhiyyəsinin səmərəliliyini artırmaq məqsədilə tibb təhsili sahəsində qarşılıqlı fəaliyyət üçün bütün zəruri vasitələr mövcuddur. Fergus Auld post-COVID dövründə Azərbaycanla Böyük Britaniya arasında əməkdaşlığın genişləndirilməsinin daha da zəruri olduğunu deyib.

Konstruktiv və qarşılıqlı anlaşma şəraitində keçən görüş zamanı səhiyyə və tibb elmi sahəsində Azərbaycan və Böyük Britaniya əməkdaşlığının mövcud vəziyyəti və potensial inkişaf imkanları müzakirə olunub.



# Səhiyyə naziri orta tibb təhsilinin müasir standartlara uyğunlaşdırılmasına dair tapşırıqlar verib

**Səhiyyə Nazirliyində tibb kolleclərinin rəhbərləri ilə görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, iclasda çıxış edən səhiyyə naziri Teymur Musayev Azərbaycanda orta tibb təhsilinin şərəfli tarixə malik olduğunu bildirib. Nazir qeyd edib ki, ölkəmizin görkəmli həkim və alimlərinin müxtəlif dövrlərdə çalışdıqları tibb kolleclərinin məzunları səhiyyəmizin inkişafına dəyərli töhfələr verirlər: «Əldə olunan nailiyyətlərlə yanaşı, çətinliklər də mövcuddur və biz bütün diqqətimizi onların həllinə yönəltməliyik. Bizim üçün əsas məsələ tibb təhsilinin keyfiyyətinin yüksəldilməsi, inkişafının təmin edilməsi və savadlı kadrların hazırlanmasıdır. Bu məqsədlə nazirlik ölkənin tibb kolleclərinə hər cür köməklik göstərməyə hazırdır».

T.Musayev çıxışında Azərbaycanda səhiyyə sahəsinin maddi-texniki bazasının gücləndirilməsi üçün dövlət səviyyəsində zəruri addımların atıldığını vurğulayaraq bildirib ki, məhz bu dəstəyin nəticəsində son illərdə ölkəmizdə yüzlərlə tibb müəssisəsi tikilərək istifadəyə verilib.

İlkin səhiyyə xidmətlərinin inkişafı üçün tibb işçilərinin, xüsusilə tibb bacılarının intensiv təlimlərə cəlb edilməsinin vacibliyini vurğulayan Teymur Musayev Səhiyyə Nazirliyinin təşəbbüsü ilə gələn il Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən Simulyasiya və Təlim Mərkəzinin yaradılacağını bildirib: «Bu mərkəzin yaradılmasında əsas məqsəd tibb işçilərinin bilik və bacarıqlarının artırılması, eyni zamanda, yerli təlimçilərin yetişdirilməsidir».

Nazir həmçinin ölkədəki tibb kolleclərində mövcud problemlərin monitorinqi üçün işçi qrupunun yaradılacağını vurğulayıb: «Bununla yanaşı, tələbələrin intellektual qabiliyyətlərinin inkişafı bizim üçün çox vacibdir. Son onilliklərdə elmi nailiyyətlərə və onların imkanlarına maraq artır. Müasir informasiya texnologiyaları və rəqəmsal yeniliklər həyatımızı əhəmiyyətli dərəcədə dəyişir. Tibb elmi XX əsrin sonundan bəri rəqəmsal dünyaya sürətlə daxil olan ilklərdən biridir. Bütün bunları nəzərə alaraq, yaxın gələcəkdə Vahid Elektron Kitabxana Sistemi yaradılacaq və tibb kolleclərinin tələbə və müəllimlərinin istifadəsinə veriləcək».

Toplantıda 1 nömrəli Bakı Tibb Kollecinin direktoru Nailə Əliyeva, 2 nömrəli Bakı Baza Tibb Kollecinin direktoru Dilarə Məmmədəliyeva, həmçinin regional tibb təhsili müəssisələrinin rəhbərləri kolleclərin fəaliyyəti, tədris prosesi və tələbələr üçün yaradılan şərait barədə məlumat veriblər.

Sonda Teymur Musayev tibb kolleclərinin rəhbərlərinə orta tibb təhsilinin müasir standartlara uyğunlaşdırılmasına dair tapşırıqlar verib.

# Səhiyyə Nazirliyində Belçika tibbi avadanlıq şirkətlərinin nümayəndələri ilə görüş olub

**Azərbaycan Səhiyyə Nazirliyində Belçikanın tibbi avadanlıq istehsalı üzrə aparıcı şirkətlərinin nümayəndələri ilə görüş keçirilib. Görüşdə həmçinin Belçikanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mişel Pitermans da iştirak edib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, görüş zamanı səhiyyə naziri Teymur Musayev son illər ölkələrimiz arasında əməkdaşlığın dinamik şəkildə inkişaf etdiyini qeyd edib. Onun sözlərinə görə, dövlət başçılarının müntəzəm görüşləri, eyni zamanda, hökumət üzvlərinin qarşılıqlı səfərləri iki ölkə arasında müxtəlif istiqamətlərdə münasibətlərin inkişafında mühüm rol oynayır.

Ölkələrimiz arasında səhiyyə sahəsində də məhsuldar əməkdaşlıq əlaqələrinin mövcudluğunu vurğulayan nazir bildirib ki, yüksəkkeyfiyyətli müalicəsi ilə tanınan Belçika səhiyyə xidməti dünyada ən yaxşılardan hesab olunur: «Eyni zamanda, Belçika əczaçılıq və tibb avadanlıqlarının istehsalı və satışı üzrə dünyanın aparıcı ölkələrindən biridir».

Öz növbəsində IBA şirkətinin Rusiya və MDB ölkələri üzrə vitse-prezidenti Kiril Makarenko və «Orfit Industries» şirkətinin nümayəndəsi Yoxan Foke Azərbaycanla əməkdaşlığın daha yüksək səviyyədə olmasında maraqlı olduqlarını vurğulayıblar. Diqqətə çatdırılıb ki, onkoloji xəstəliklərin diaqnostikası və müalicəsi üçün yüksəktexnologiyalı tibbi avadanlıqlar istehsal edən IBA şirkəti proton terapiyası və dozimetriya sahəsində liderdir. Həmçinin şüa müalicəsinin istifadəsində fiksasiyaedici avadanlıqlar istehsal edən «Orfit Industries» şirkəti xəstələrin immobilizasiyası və yerləşdirilməsi üzrə dünya üzrə aparıcı təchizatçıdır.

Görüşün sonunda tərəflər əməkdaşlığı inkişaf etdirmək barədə müzakirə aparıblar.

# ÜST-nin nümayəndə heyəti Səhiyyə Nazirliyində rəsmi şəxslərlə görüşüb

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Səhiyyə Hesablama Sisteminin (SHS) tətbiqi və səhiyyə xərclərinin izlənməsinin qiymətləndirilməsi üzrə missiyası ölkəmizdə ikigünlük işgüzar səfərdə olub.**

Bununla bağlı Səhiyyə Nazirliyində ÜST nümayəndə heyəti ilə görüş keçirilib.

Toplantıda ÜST-nin Azərbaycan üzrə nümayəndəliyinin rəhbəri Hande Harmancı da iştirak edib.

Səhiyyə Nazirliyinin mətbuat xidməti bildirir ki, səhiyyə naziri Teymur Musayev ölkəmizin ÜST ilə əməkdaşlığa böyük önəm verdiyini vurğulayıb. Bildirib ki, Azərbaycan bu nüfuzlu səhiyyə təşkilatı ilə 1992-ci ildən sıx əməkdaşlıq edir və bu işbirliyi hər il yüksələn xətlə inkişaf etməkdədir. Belə ki, 30 il ərzində qarşılıqlı əməkdaşlıq şəraitində mühüm işlər görülüb, ölkə, region və qlobal səviyyələrdə uğurlu layihələr həyata keçirilib.

Nazir səhiyyə və iqtisadiyyatın bir-biri ilə ayrılmaz şəkildə əlaqəli olduğunu vurğulayıb. «Səhiyyə sisteminin inkişafı üçün tələb olunan maliyyə resurslarının formalaşmasında güclü iqtisadiyyata ehtiyac var. Səhiyyə Hesablama Sistemi ÜST tərəfindən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Dünya Bankı, USAID və digər beynəlxalq inkişaf təşkilatları ilə birlikdə işlənib hazırlanmış, hökumətlərə səhiyyə üzrə maliyyə axınlarını sistematik şəkildə izləməyə və qiymətləndirməyə imkan verən, qlobal miqyasda istifadə olunan alətdir.

Səhiyyə Nazirliyi Azərbaycanda bu proqramın həyata keçirilməsi üçün hər cür köməklik göstərməyə hazırdır», — deyə Teymur Musayev fikrini tamamlayıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən ÜST-nin qiymətləndirmə missiyasının nümayəndəsi David Gzirishvili Azərbaycanda səhiyyə sektorunda mühüm islahatları, xüsusən də səhiyyə sisteminin gücləndirilməsi işlərinə başlanılmasını vurğulayıb. Onun sözlərinə görə, SHS kimi bir alətin tətbiq edilməsində ölkələrə texniki dəstək göstərilməsi ÜST-nin prioritetlərindən biridir. Belə ki, səhiyyə xərclərinin izlənməsi, məlumatların və beynəlxalq müqayisələrin təmin edilməsində qlobal lider olaraq, ÜST ölkə kontekstinin qiymətləndirilməsi, ilkin qiymətləndirmələrin aparılması, yerli potensialın yaradılması və SHS prosesinin davamlılığının təmin olunması üçün ölkələrə texniki dəstək göstərir.

Qeyd edək ki, SHS əsas funksiyasından əlavə, səhiyyə sisteminin fəaliyyətini izləmək və qiymətləndirmək məqsədilə analitik alətlər üçün giriş kimi də istifadə olunur. Bundan əlavə, səhiyyə xərclərinin SHS metodologiyasına əsaslanan izlənməsi üsulu ənənəvi fiskal təhlillə müqayisədə tibbi xidmətlərin istifadəsi haqqında daha zəngin məlumat verir.

# Bakıda II Azərbaycan Beynəlxalq Hematologiya Konqresi keçirilib




Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) təşkilati dəstəyi ilə Bakıda II Azərbaycan Beynəlxalq Hematologiya Konqresi keçirilib.

Tədbirdə giriş sözü ilə çıxış edən **səhiyyə nazirinin müavini İlqar Qasımov** toplantı iştirakçılarını səhiyyə naziri Teymur Musayevin adından salamlayıb və beynəlxalq konqresin əhəmiyyətini qeyd edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə insanların sağlamlığının qorunması istiqamətində məqsədyönlü siyasətin həyata keçirildiyini vurğulayan nazir müavini bildirib ki, əhaliyə göstərilən hematoloji və transfuzioloji yardımın təkmilləşdirilməsi də daim dövlətimizin diqqət mərkəzindədir. Belə ki, Milli Məclis qanın irsi xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı və qan donorluğunun, qan xidmətinin inkişafı barədə qanunlar qəbul edib. Nazirlər Kabineti tərəfindən qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına, hemofiliya və talassemiya ilə mübarizəyə və qanın bədxassəli xəstəlikləri ilə mübarizəyə dair dövlət proqramları təsdiq olunub. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Talassemiya Mərkəzi inşa edilib. Ən müasir avadanlığın quraşdırıldığı mərkəzin istifadəyə verilməsi ilə Azərbaycanda talassemiyadan əziyyət çəkən uşaqların müasir



metodlarla müalicəsinə, onların təhlükəsiz və keyfiyyətli qanla təminatı üçün könüllü donor xidmətinin inkişaf etdirilməsinə, eyni zamanda, ölkəmizdə yüksəkixtisaslı kadrların hazırlanmasına nail olunub.

«Əminəm ki, beynəlxalq konqres hematologiya və transfuziologiya sahəsində eksperimental və klinik araşdırmalarda ən son nailiyyətlərlə tanış olmaq imkanı yaradacaq və hematologiya sahəsində beynəlxalq elmi əməkdaşlığın möhkəmlənməsinə öz töhfəsini verəcək», – deyə nazir müavini fikirlərinə yekun vurub.

Konqresdə çıxış edən İcbari **Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Nigar Bayramova** və **TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov** ölkəmizdə beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsinin ənənə halını aldığını bildiriblər. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın səhiyyə sahəsinə daim diqqət yetirdiyi vurğulanıb, irsi qan xəstəlikləri ilə mübarizədə görülən işlərdən, hematologiya sahəsində gen səviyyəsində elmi tədqiqatlardan, həmçinin qəbul olunan dövlət proqramlarından danışılıb.

Konqresin sədri, **Milli Hematologiya və Transfuziologiya Mərkəzinin icraçı direktoru Valeh Hüseynov** beynəlxalq tədbirdə 20-yə yaxın ölkədən 500-dən çox mütəxəssisin iştirak etdiyini diqqətə çatdırıb. Qeyd olunub ki, konqres çərçivəsində 20 paneldə bu sahə üzrə 132 mütəxəssisin məruzələri dinləniləcək.

Həmçinin «Flow cytometry və Genetika» kursu və «Tibb Bacıları Simpoziumu» (II TBS) keçiriləcək.

Beynəlxalq konqres öz işini panel sessiyalarla davam etdirib. Üç gün ərzində mövzu ilə bağlı məruzələr dinlənilib, çıxışlar olub, müzakirələr aparılıb.

Milli Hematologiya və Transfuziologiya Mərkəzinin icraçı direktoru, «Azərbaycan Hematologiya Mütəxəssisləri» İctimai Birliyinin sədri Valeh Hüseynov jurnalistlərə müsahibəsində deyib ki, Azərbaycanda irsi qan xəstəlikləri arasında hemoqlobinopatiyalı, talassemiyalı və hemofiliyalı xəstələr aktuallıq kəsb edir. Statistik göstəricilərə görə, əvvəlki illərə nisbətən həmin xəstəliklərin rastgəlmə tezliyində azalma müşahidə edilir.

V.Hüseynovun sözlərinə görə, müsbət tendensiyanın müşahidə olunmasında nikaha daxil olan cütlüklərin müayinəsi xüsusi rol oynayır: «Bu, uzaq perspektivə hesablanmış bir proqramdır və artıq öz bəhrəsini verməyə başlayıb.

Maarifləndirmə işlərinin aparılması nəticəsində talassemiyalı xəstələrin doğulma tendensiyasında da azalma müşahidə olunur.

İrsi qan xəstəliklərində erkən müraciətdən daha çox, həmin xəstəliklərin profilaktikası mühüm əhəmiyyət kəsb edir. Həmin xəstəliklər irsi keçdiyi üçün nikahdan öncə cütlüklərin maarifləndirilməsi çox önəmlidir. Bunun üçün də nikahdan əvvəl cütlükləri testlərdən keçirməklə riskləri onlara əvvəlcədən izah edirik. Düşünürəm ki, atılan addımlar sayəsində gələcəkdə xəstə uşaqların doğulma sayında ciddi azalma qeydə alınacaq».

Tədbirdə iştirak edən Türk Hematoloji Dərnəyinin rəhbəri professor Muhlis Cem Ar jurnalistlərə müsahibəsində deyib ki, Türk Hematoloji Dərnəyinin digər ölkələrlə yaxın münasibət quraraq qarşılıqlı öyrənmək, təcrübələri paylaşmaq, gənc hematoloqları yetişdirmək sahəsində böyük hədəfləri var. Bu baxımdan Azərbaycanın qurum üçün önəmini vurğulayan natiq konqres çərçivəsində «Azərbaycan Hematologiya Mütəxəssisləri» İctimai Birliyi ilə Türk Hematoloji Dərnəyi arasında ikili təhsil və elmi araşdırmaya dair anlaşma sənədi imzalanması haqqında məlumat verib: «Beləliklə, iki ölkənin hematoloqları ortaq təhsil, ölkənin hematoloji təhsil standartlarının inkişaf etdirilməsinə çalışacaqlar. Bundan sonra da fərqli layihə və tədbirlərdə əməkdaşlıq edəcəyimizə inanıram».

# İSİM-də ÜST-nin və ABŞ-nin İnfeksiyalara Nəzarət Mərkəzinin nümayəndələri ilə görüş olub

**Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzində (İSİM) Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa regional ofisinin və ABŞ-nin İnfeksiyalara Nəzarət Mərkəzinin (US CDC) nümayəndələri ilə görüş keçirilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidməti bildirir ki, görüşdə «COVID-19 xəstəliyinə qarşı peyvəndin effektivliyinin dəyərləndirilməsi» üzrə ölkədə icra olunan tədqiqatla bağlı fikir mübadiləsi aparılıb, əldə edilən nəticələr layihə iştirakçıları ilə müzakirə olunub.

Görüşdə tədqiqatın gedişatı barədə İSİM tərəfindən hazırlanan videoçarx təqdim edilib, tədbir iştirakçılarının sualları cavablandırılaraq geniş fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, ÜST-nin Avropa regional ofisinin və ABŞ-nin İnfeksiyalara Nəzarət Mərkəzinin nümayəndələrindən ibarət heyət səfər müddətində tədqiqatın aparıldığı bəzi xəstəxanalarda tibb işçiləri ilə görüşlər keçirəcək. Həmçinin tədqiqatın ilkin nəticələrinin bütün aidiyyəti tərəfdaşların iştirakı ilə geniş müzakirəsi və gələcək üçün tövsiyələrin hazırlanması məqsədilə dəyirmi masa təşkil olunacaq.

# II Türkiyə-Azərbaycan Hepato-Pankreato-Biliar Cərrahiyyə Konfransı keçirilib

**Azərbaycan Tibb Universitetində (ATU) II Türkiyə-Azərbaycan Hepato-Pankreato-Biliar (HPB) Cərrahiyyə Konfransı təşkil olunub.**

Universitetin mətbuat xidmətindən bildirildiyinə görə, ATU və Türk HPB Cərrahiyyəsi Dərnəyinin birgə təşkilatçılığı ilə keçirilən tədbir «Pankreasın neoplastik kistlərinə müasir yanaşma» mövzusuna həsr edilib.

Tədbirdə çıxış edən **ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov** qardaş ölkələr olan Azərbaycan və Türkiyə arasında hər sahədə olduğu kimi, səhiyyə və təhsil istiqamətlərində də irimiqyaslı layihələrin icra edildiyini bildirib və konfransı ikitərəfli əlaqələrə bir töhfə kimi qiymətləndirib.

Qeyd edilib ki, hazırda ATU-nun beynəlxalq əlaqələrində ilk yerdə Türkiyənin universitetləri və tibb müəssisələri ilə əməkdaşlığın olması təsadüfi deyil.

Türkiyənin 30-dan çox universiteti ilə qarşılıqlı əməkdaşlığa dair memorandum mövcuddur ki, həmin işbirliyi çərçivəsində müştərək elmi işlər aparılır, mütəxəssislərin və tələbələrin mübadiləsi həyata keçirilir. Prorektor çıxışının sonunda konfransın işinə uğurlar arzulayıb.

**Səhiyyə nazirinin müavini Nadir Zeynalov** tədbirin mövzusunun müasir tibb üçün böyük əhəmiyyət daşıdığını bildirib. O, hepato-pankreato-biliar cərrahiyyənin ümumi cərrahiyyənin çox mürəkkəb və eyni zamanda, sürətlə inkişaf edən sahələrindən biri olduğunu qeyd edib. Bildirib ki, tibbi texnologiyalar təkmilləşdikcə, hər bir sahədə olduğu kimi, bu sahədə də patologiyaların aşkarlanması artıb, müvafiq olaraq, diaqnostik və müalicə tədbirləri də genişlənib. Nazir müavini praktik təcrübə və fikir mübadiləsi aparılması, müzakirələrin təşkili baxımından belə tədbirlərin böyük önəm daşıdığını vurğulayıb.

**Universitetin I Cərrahi xəstəliklər kafedrasının müdiri Nuru Bayramov** Azərbaycan və Türkiyə arasında hərtərəfli münasibətlərin təhsil sahəsinə də güclü sirayət etdiyini bildirib. Türk HPB Cərrahiyyə Dərnəyi ilə ATU-nun I Cərrahi xəstəliklər kafedrası arasında çox sıx və uzunmüddətli əlaqələrin olduğunu qeyd edən kafedra müdiri indiyədək bir çox ortaq layihələrə imza atıldığını xatırladıb.

**Türk HPB Cərrahiyyə Dərnəyinin rəhbəri Mustafa Kerem** də Azərbaycanda görülən işlər barədə danışıb. Qeyd olunub ki, ölkəmizdə açılan HPB mərkəzi türkiyəli mütəxəssislər tərəfindən hepato-pankreato-biliar cərrahiyyənin əsasları öyrədilən təhsil platformasıdır. Mərkəzin əsas məqsədi ümumi cərrahiyyə üzrə təhsil alan və ya artıq təhsil almış tibb işçilərinin HPB cərrahiyyəsinin fəlsəfəsini qavramasına yardımçı olmaq, bu sahəyə marağı olan cərrahlara kömək etməkdən ibarətdir.

Rəsmi çıxışlardan sonra konfrans öz işini panel sessiyalarla davam etdirib.

# ÜST layihəsi çərçivəsində ölkənin bütün peyvənd məntəqələri temperatur monitorinqi cihazları ilə təmin edilib

**Avropa İttifaqının (Aİ) maliyyə dəstəyi ilə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) həyata keçirdiyi «COVID-19 əleyhinə vaksinasiyaya dəstək» layihəsi çərçivəsində tibbi avadanlıqların təhvil-təslim mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası səhiyyə nazirinin müavini Nadir Zeynalov, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Tibbi fəaliyyətin təşkili departamentinin rəhbəri Teymur Mirzəbəyli, ÜST-nin Azərbaycandakı nümayəndəsi və ölkə ofisinin rəhbəri Hande Harmancı, Avropa İttifaqının Azərbaycandakı səfiri Peter Mixalko və yerli səhiyyə tərəfdaşları iştirak ediblər.

Nazir müavini bildirib ki, artıq dünya COVID-19 pandemiyasından çıxmaq ərəfəsindədir, lakin bu layihə uzun illər vaksinasiya prosesinə kömək edəcək.

Nadir Zeynalov Səhiyyə Nazirliyinin adından layihəyə görə Ümumdünya Səhiyyə Təşkilatına və Avropa İttifaqına təşəkkür bildirib.

**ÜST-nin Azərbaycandakı nümayəndəsi və ölkə ofisinin rəhbəri Hande Harmancı** mərasimdə deyib ki, indiyə qədər yerli səhiyyə tərəfdaşlarına təhvil verilən avadanlıqlar 500 min dollar dəyərindədir.

«Bizim əsas məqsədimiz COVID-19 pandemiyası zamanı əldə etdiyimiz təcrübəni qüvvətləndirməkdir. Koronavirusa qarşı vaksinasiyaya dəstək layihələri bizə kömək edir ki, digər viruslar əleyhinə vaksinlərin ölkə ərazisində daha rahat istifadə edilməsinə şərait yaradaq. Biz avadanlıqlarla birlikdə öz təcrübəmizi də səhiyyə işçiləri ilə bölüşürük. Onların bilik və bacarıqlarının artırılması üçün təlimlərin keçirilməsi planlaşdırılır. Vaksinasiya ictimai sağlamlıq üçün ən vacib şərtdir», – deyə H.Harmancı qeyd edib.




Ölkədə həm COVID-19, həm də rutin peyvəndlərin saxlanması və daşınması üçün soyuq zəncir sisteminin gücləndirilməsi məqsədilə Səhiyyə Nazirliyi və TƏBİB-ə 3 min ədəd donma indikatoru, 520 peyvənd daşıyıcısı, 70 müxtəlif litrajlı soyuq qutu və ölkənin peyvənd məntəqələrində istifadə olunan bütün soyuducular üçün 1800 ədəd 30 günlük temperatur monitorinqini təmin edən cihaz təhvil verilib.

Tədbirdə yerli səhiyyə tərəfdaşlarına təhvil verilən avadanlıqların ölkədə soyuq zəncir sisteminin gücləndirilməsi və peyvəndlərin insanlara təhlükəsiz şəraitdə çatdırılması baxımından vacibliyi vurğulanıb. Avadanlıq və cihazlardan düzgün istifadə məqsədilə bütün peyvənd məntəqələrinin işçilərinə təlimlərin keçirilməsi planlaşdırılır. ÜST-nin texniki dəstəyi ilə ölkə üzrə keçirilən soyuq zəncir avadanlıqlarının inventarlaşdırılmasının nəticələrinə əsasən, layihə çərçivəsində ölkədə daha çox ehtiyac duyulan soyuq zəncir avadanlığı və tibbi cihazların təchizatının davam etdirilməsi nəzərdə tutulub.

Soyuq zəncir sistemi avadanlıqlarının yerli səhiyyə tərəfdaşlarına təhvil-təslim mərasimində **səhiyyə nazirinin müavini Nadir Zeynalov** deyib ki, Avropa İttifaqının və ÜST-nin dəstəyi ilə həyata keçirilən «COVID-19 əleyhinə vaksinasiyaya dəstək» layihəsi koronavirus pandemiyasının qızğın vaxtında irəli sürülüb. Layihə ölkə ərazisində peyvəndlərin saxlanılması və çatdırılması üçün zəruri olan avadanlığın gücləndirilməsi məqsədi daşıyır.

**Avropa İttifaqının Azərbaycandakı səfiri Peter Mixalko** mərasimdə iştirakından məmnun olduğunu söyləyib: «Avropa İttifaqı Azərbaycanın etibarlı tərəfdaşıdır. Pandemiya dövründən başlayaraq biz öz əlaqələrimizi gücləndirməyə davam edirik. Azərbaycan bu regionda ən yüksək peyvəndləmə statistikasına sahibdir».

Səfir qeyd edib ki, bu təhvil-təslim mərasimində maddi dəyəri 100 min dollar olan avadanlıqlar tərəfdaşlara təhvil verilib. «Biz Azərbaycanla öz təcrübələrimizi bölüşürük. Tibb işçiləri üçün müxtəlif seminarlar təşkil edirik», – deyə Peter Mixalko bildirib.

Xatırladaq ki, Azərbaycanda COVID-19 pandemiyasına qarşı mübarizə və rutin immunlaşdırma proqramlarının gücləndirilməsi məqsədilə ÜST-nin Azərbaycandakı nümayəndəliyi 2021-ci ilin iyun ayından etibarən Avropa İttifaqının maliyyə dəstəyi ilə üçillik «COVID-19 əleyhinə vaksinasiyaya dəstək» layihəsini həyata keçirməyə başlayıb. Bu layihə Aİ və ÜST-nin Azərbaycana davamlı dəstəyinin tərkib hissəsidir.

# II Beynəlxalq Laboratoriya Təbabəti Konfransı




**Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) və Azərbaycan Tibb Universitetinin təşkilati dəstəyi, «Uptodate in Medicine» təşkilatının texniki dəstəyi ilə Azərbaycan Klinik Laboratoriya Mütəxəssisləri İctimai Birliyinin II Beynəlxalq Laboratoriya Təbabəti Konfransı keçirilib.**

İSİM-dən bildirildiyinə görə, konfransın keçirilməsində məqsəd klinik laboratoriya mütəxəssislərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi, bu sahədə yeniliklərin təqdim edilməsi olub.

Azərbaycan mütəxəssisləri ilə yanaşı, Türkiyə, Çin və Moldovadan olan məruzəçilərin də iştirak etdiyi tədbirdə 8 paneldə laboratoriya təbabətinin aktual mövzularına dair 40 məruzə təqdim olunub.

İki gün davam edən konfransda ölkəmizin müxtəlif bölgələrindən 200-dən çox klinik biokimya və klinik mikrobiologiya mütəxəssisi iştirak edib.

Tədbirdə biokimyəvi və mikrobioloji laboratoriyalarda analitik xətalar və onların qarşısının alınması, kardiologiya, endokrinologiya, nefrologiya, revmatologiya, hematologiya və qastroenterologiyada laborator testlərin, həmçinin skrininq testlərinin tətbiqi, mikrobiologiya və molekulyar genetika sahələrinə dair son elmi nailiyyətlər müzakirə edilib.

Konfrans çərçivəsində tibbi laboratoriyaların idarə olunmasında son yanaşmalara həsr olunan panel, eyni zamanda, Türkiyə mütəxəssisləri tərəfindən «Laboratoriyada keyfiyyət əldə etmək üçün şifrlər» kursu təşkil edilib.

# Azərbaycanda «Avropa İİV-ə testləşmə həftəsi – 2022» başlayıb

**Səhiyyə Nazirliyinin Respublika QİÇS-lə Mübarizə Mərkəzi Azərbaycanda «Avropa İİV-ə testləşmə həftəsi – 2022» kampaniyasına start verib.**

Səhiyyə Nazirliyinin mətbuat xidməti bildirir ki, insan sağlamlığına ciddi təhlükə olan İnsanın İmmunçatışmazlığı Virusunun (İİV) yayılmasının qarşısını almaq üçün maarifləndirmə aksiyaları ilk olaraq Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə Cəlilabad Tibb Kollecində keçirilib, müayinələr aparılıb.

Tədbirlərdə təhsil ocaqlarının 350-dən artıq müəllim, tələbə və texniki işçisi sağlam həyat tərzi barədə məlumatlandırılıblar. Universitet və kollecdə tələbələrə Mərkəzin mütəxəssisləri tərəfindən xəstəliyin tarixi, yoluxma yolları, profilaktikası, müayinəsi və müalicəsi barədə ətraflı məlumat verilib.

Tələbələri maraqlandıran suallar cavablandırılıb, pulsuz və anonim qaydada İİV-ə ekspres-testdən keçmək imkanı yaradılıb. Eyni zamanda, təhsil müəssisələrində tələbələrə İİV/QİÇS-ə aid broşürlər, bukletlər paylanıb, xəbərdaredici məlumatlar verilib.

Xatırladaq ki, «Avropa İİV-ə testləşmə həftəsi» kütləvi maarifləndirmə tədbiri kimi, hər il 1 Dekabr – Ümumdünya QİÇS-lə Mübarizə Günü ərəfəsində – noyabrın son həftəsində qeyd edilir. Respublika QİÇS-lə Mübarizə Mərkəzi bu təşəbbüsə kollektiv şəkildə qoşulur. «Avropa İİV-ə testləşmə həftəsi» Ümumdünya Səhiyyə Təşkilatının (ÜST), Birləşmiş Millətlər Təşkilatının İİV/QİÇS üzrə Birləşmiş proqramının birgə təşəbbüsü ilə keçirilən kampaniyadır. Bu həftə ərzində ÜST-nin Avropa regionunun bütün ölkələrində




kütləvi maarifləndirmə və İİV-ə testləşmə aksiyaları təşkil olunur. Aksiyaların məqsədi regionda daha çox insanın İİV infeksiyasına münasibətdə özünün statusu barədə öyrənə bilməsi və bu xəstəliyin diaqnostikasında gecikmə probleminin minimuma endirilməsidir. Strateji planda «Avropa İİV-ə testləşmə həftəsi» erkən diaqnostika və müalicənin başlanması hesabına virusun sonradan ötürülməsinin qarşısını almaqla İİV infeksiyası epidemiyasına son qoymaq məqsədini güdür. Testləşmə kampaniyası kimi xeyirxah təşəbbüs 2013-cü ildə yaranıb və Avropada əhalinin əksəriyyəti tərəfindən qəbul edilib.

Maarifləndirici tədbirlərin Respublika QİÇS-lə Mübarizə Mərkəzinin və onun bölgələrdəki laboratoriyalarının təşkilatçılığı ilə ölkəmizin bütün regionlarında keçirilməsi nəzərdə tutulur.

# «Azərbaycanda rutin immunlaşdırma proqramı» UNICEF və ÜST bu mövzuda seminar keçirib



**BMT-nin Uşaq Fondu (UNICEF) və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəliyi «Azərbaycanda rutin immunlaşdırma proqramı» mövzusunda birgə seminar təşkil edib.**

AZƏRTAC xəbər verir ki, UNICEF-in Avropa və Mərkəzi Asiya regional ofisinin (ECARO), ÜST-nin Avropa üzrə regional ofisinin və yerli səhiyyə qurumlarının, o cümlədən Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB), Respublika Gigiyena və Epidemiologiya Mərkəzi, İnnovasiya və Təchizat Mərkəzi, Analitik Ekspertiza Mərkəzi və İctimai Səhiyyə və İslahatlar Mərkəzinin nümayəndələri müzakirələrdə iştirak ediblər.

Məlumat sessiyaları zamanı regional və yerli mütəxəssislər Azərbaycanda immunlaşdırma proqramının gücləndirilməsi və idarə olunması, peyvənd sifarişlərinin və satın alınmasının planlaşdırılması üzrə regional təcrübələr, peyvəndlərin paylanması prosesi, soyuq zəncir sisteminin idarə olunması, ilkin səhiyyə müəssisələrində uşaqlar üçün immunizasiya xidmətləri kimi mövzularda müzakirələr aparılıb.

Seminar zamanı qrup müzakirələrində immunlaşdırma proqramında mövcud olan çətinliklər, onların aradan qaldırılması yolları müəyyən olunub. Qrup müzakirələrinin nəticəsi olaraq qurumlar arasında immunlaşdırma proqramı üzrə prioritet problemlərin həlli ilə bağlı qısamüddətli fəaliyyət planının hazırlanması və onun həyata keçirilməsi üçün işçi qrupun təşkil olunması razılaşdırılıb.

# Ümumdünya Antibiotikdən Düzgün İstifadə Həftəsinə həsr olunmuş interaktiv tədbir

**Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) və Azərbaycan Tibb Universitetinin (ATU) təşkilatçılığı ilə «Antibiotiklərdən sui-istifadəyə yox deyək!» mövzusunda interaktiv tədbir keçirilib.**

Mərkəzin mətbuat xidmətindən verilən məlumata görə, Ümumdünya Səhiyyə Təşkilatının dəstəyi ilə təşkil edilən tədbir hazırda bir çox ölkələrdə qeyd olunan Ümumdünya Antibiotiklərdən Düzgün İstifadə Həftəsi çərçivəsində baş tutub.

Onun məqsədi antibiotiklərdən lazımi şəkildə istifadə etməklə onların effektivliyinin qorunub saxlanması istiqamətində maarifləndirmənin aparılmasından ibarətdir.



ATU-nun İctimai səhiyyə fakültəsinin tələbə və müəllimlərinin iştirakı ilə keçən tədbirdə fakültənin Qidalanma və tibbi ekologiya kafedrasının müdiri dosent İbrahim Əhmədov bu sahədə aparılan təbliğat və təşviqat tədbirlərinin əhəmiyyətini qeyd edərək bildirib ki, Ümumdünya Antibiotikdən Düzgün İstifadə Həftəsi çərçivəsində keçirilən tədbirlərin məqsədi antibiotiklərdən lüzumsuz istifadənin qarşısını almaq və onların qəbulunun yalnız ixtisaslaşmış səhiyyə mütəxəssisi tərəfindən təyin olunmasına nail olmaqdan ibarətdir.

İSİM-in Təlim-resurs şöbəsinin həkim-metodisti Pərvin Quliyeva «Antibiotiklər. Miflər və həqiqətlər» mövzusunda təqdimatla çıxışında deyib ki, antibiotikə qarşı davamlılığın güclənməsi qlobal sağlamlığın üzləşdiyi əsas təhlükələrdən biridir: «Dünyada hər il təxminən 700 min nəfər müxtəlif dərmanlara dayanıqlı bakteriya ilə yoluxaraq dünyasını dəyişir. Onlardan 33 mini yalnız Avropa İttifaqının payına düşür. Mikrob əleyhinə müqavimətlə mübarizə üçün «Bir sağlamlıq» yanaşması qəbul edilib. Bu, regionda və dünyada antibiotiklərlə bağlı real inkişafa nail olmaq üçün yeganə üsul hesab edilir. «Bir sağlamlıq» yanaşmasına əsasən, insan və heyvan sağlamlığı, eləcə də ətraf mühit bir-biri ilə sıx əlaqədədir».

Tədbir «Antibiotiklər barədə maraqlı məlumatlar» mövzusunda interaktiv oyunla davam edib. Tələbələr antibiotiklərin düzgün istifadəsi ilə bağlı sualları cavablandıraraq mövzuya dair geniş məlumat əldə ediblər.

Yekunda qaliblərə və iştirakçılara xatirə hədiyyələri və maarifləndirici materiallar təqdim olunub.

# Səhiyyə Nazirliyinin mütəxəssisi beynəlxalq konfransın panel müzakirəsində iştirak edib



**Monteneqro Respublikasının paytaxtı Podqoritsa şəhərində «Hər bir uşağın optimal inkişafı üçün erkən müdaxilə» konfransı təşkil edilib.**

Xorvatiya, Serbiya, Monteneqro, Bosniya və Herseqovina, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Belarus, Bolqarıstan, Portuqaliya və digər ölkələrin nümayəndə heyətlərinin iştirak etdiyi beynəlxalq konfransda ölkəmizi Səhiyyə Nazirliyinin Qadın, ana, uşaq və yeniyetmələrin sağlamlığının qorunması sektorunun müdiri Aynurə Zeynalova, UNICEF-in Azərbaycandakı nümayəndəliyinin erkən uşaqlıq dövrü inkişafı üzrə mütəxəssisi Yelena İsrafilova və TƏBİB-in Ana və uşaq sağlamlığının təşkili şöbəsinin məsləhətçisi Şəbnəm Şahgəldiyeva təmsil ediblər.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib ki, nazirliyin mütəxəssisi beynəlxalq konfrans çərçivəsində keçirilən panel müzakirəsində iştirak edib.

Tədbirin əsas məqsədi Avropa və Orta Asiya regionunda uşaqlarda erkən inkişafın müdaxiləsinin monitorinqi, çətinlikiləri və əsas problemlərin həlli yollarının müzakirəsi olub. Eyni zamanda, erkən uşaqlıq inkişafı üzrə Milli Proqramın hazırlanması və bununla bağlı yol xəritəsinin tərtib edilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

# ATU-da akkreditasiyaya dair beynəlxalq seminar baş tutub

**Azərbaycan Tibb Universitetində (ATU) Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyin (Independent Agency for Accreditation and Rating - IAAR) təşkilatçılığı ilə «Beynəlxalq akkreditasiya — təhsilin keyfiyyətinin artırılması aləti» mövzusunda beynəlxalq seminar keçirilib.**

Universitetdən bildirildiyinə görə, Azərbaycanın bir sıra ali məktəblərinin rektorları və rəhbər şəxsləri, təhsil üzrə beynəlxalq ekspertlər, müəllimlər iştirak edən seminarda **ATU-nun rektoru, professor Gəray Gəraybəyli** pedaqoji prosesin daim inkişafda olduğunu deyib, təhsildə innovasiya və yeni texnologiyaların tətbiqinin vacibliyini vurğulayıb: «Azərbaycan universitetləri dünya bazarında rəqabətə davamlı kadrlar yetişdirilməsi uğrunda daim inkişaf prosesindədirlər. Lakin bu prosesin uğurlu nəticələnməsi üçün kənardan müstəqil ekspert rəyinin, müstəqil baxışın olması çox önəmlidir. Məhz bu səbəbdən Azərbaycan Tibb Universiteti olaraq dünya miqyaslı reytinq strukturları tərəfindən tanınan Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyi seçdik».

Professor G.Gəraybəyli üç ildən çox davam edən hazırlıq mərhələsi, beynəlxalq akkreditasiya prosesinin gedişatı haqqında iştirakçılara ətraflı məlumat verib. O, ali məktəblər üçün təhsilin keyfiyyətinin artırılması, beynəlxalq nüfuzun yüksəldilməsi, yeni bacarıqların əldə edilməsi baxımından beynəlxalq akkreditasiya prosesinin böyük önəm daşıdığını bildirib.

Sonra **IAAR-ın baş direktoru Alina Jumaqulova** Azərbaycanın səhiyyə sahəsində ilk dəfə ATU-nun üç ixtisas üzrə tədris proqramını uğurla akkreditasiyadan keçirdiyini deyib. Qlobal reallıqlar fonunda beynəlxalq akkreditasiyanın önəmindən danışan A.Jumaqulova təhsildə keyfiyyətin təminatında IAAR agentliyinin təqdim etdiyi imkanlardan söz açıb. Bildirib ki, akkreditasiya istənilən universitet üçün xarici tələbələrin qəbulu və xarici ölkələrdə diplomların tanınması üçün əhəmiyyətli addım olmaqla yanaşı, həmçinin ali məktəblərin beynəlxalq aləmə inteqrasiyasına töhfə verir.

Daha sonra Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyin təmsilçiləri təhsilin keyfiyyətinin artırılması üçün istifadə olunan mexanizmlər, kənar ekspert rəyinin hazırlanmasında meyarlar və digər təqdimatlarla məruzə ediblər. Sonda akkreditasiya prosesi barədə suallar cavablandırılıb.

Qeyd edək ki, IAAR tərəfindən həm təsisat olaraq ali məktəbin, həm də onun tədris proqramlarının akkreditasiyası aparılır. Bu agentlik MDB ölkələri içərisində Dünya Tibb Təhsili Federasiyası (World Federation of Medical Education -WFME) tərəfindən tanınan ilk qurumdur. IAAR tərəfindən akkreditasiya olunan universitetlər və tədris proqramları Dünya Tibb Təhsili Federasiyasının akkreditasiyası əldə etmiş sayılır.




# Oktyabr ayında paytaxtda 30 aptekdə yoxlama aparılıb

**Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi qanunvericiliyə uyğun olaraq əczaçılıq müəssisələrində nəzarət yoxlamaları aparır.**

Mərkəzdən verilən məlumata görə, oktyabrın 1-dən 31-dək Bakı şəhərində 30 aptekdə yoxlamalar keçirilib.

Aparılan yoxlamalar nəticəsində əczaçılıq müəssisələrində qeydiyyatsız və sertifikatsız dərman vasitələri aşkar olunmayıb, 9 protokol tərtib edilib.








## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

**Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu**

Kurort Ehtiyatlarının Öyrənilməsi şöbəsi, kiçik elmi işçi - 0,5
Nevrologiya bölməsi, kiçik elmi işçi - 1,0
Terapiya bölməsi, böyük elmi işçi - 0,5

*Ünvan: Xətai pr., 3*
*Telefon: 496-07-06*

**«Respublika Narkoloji Mərkəzi» PHŞ**

Sosioloq - 2.0
Tibb bacısı (qardaşı) - 4.0
Rentgen-texnik - 1.0
Tibbi-statistik - 1.0

*Ünvan: Maştağa qəs., Axund Şeyx Hüseyn küç.,71*
*Telefon: 558-75-16*

**Mingəçevir Şəhər Narkoloji Dispanseri**

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: 20 Yanvar küç., 182 (köhnə tibb şəhərciyi)*
*Telefon: (02427) 5-77-76*

**Sabunçu Rayon Gigiyena və Epidemiologiya Mərkəzi**

Feldşer-laborant - 1.0

*Ünvan: S.Hüseyn küç., 23*
*Telefon: 451-67-63*

**Respublika Psixiatriya Xəstəxanası PHŞ**

Tibb bacısı (qardaşı) - 10.0
Rentgen-texnik - 1.0
Psixoloq - 2.0
Sosioloq - 2.0

*Ünvan: Maştağa qəs., Şeyx Hüseyn küç., 69/71*
*Telefon: 455-10-91*

**Binəqədi Rayon Gigiyena və Epidemiologiya Mərkəzi**

Feldşer-laborant - 1.0

*Ünvan: Ə.Məmmədov küç., 13*
*Telefon: 412-03-81*

**Mingəçevir Şəhər Gigiyena və Epidemiologiya Mərkəzi**

Feldşer-laborant - 1.0

*Ünvan: Xocalı küç., 3.*
*Telefon: (02427) 5-92-41*

**Sumqayıt Şəhər Gigiyena və Epidemiologiya Mərkəzi**

Feldşer-laborant - 1.0

*Ünvan: Natavan küç., 30*
*Telefon: (01865) 5-94-05*

**ATU-nun Tədris Cərrahiyyə Klinikası**

Tibb bacısı (qardaşı) -15.0

*Ünvan: Mirqasımov küç., 2.*
*Telefon: 449-82-54*

**Suraxanı Rayon Gigiyena və Epidemiologiya Mərkəzi**

Feldşer-laborant - 1.0

*Ünvan: Ş.Məhərrəmov küç., 1*
*Telefon: 452-24-07*

**Masallı Rayon Gigiyena və Epidemiologiya Mərkəzi**

Sanitar-feldşer - 1.0

*Ünvan: H.Aslanov küç., 3*
*Telefon: (02521) 5-34-62*

**Lənkəran Şəhər Narkoloji Xəstəxanası**

Tibb bacısı (qardaşı) - 3.0

*Ünvan: Hacı Zeynalabdın Tağıyev küç., 202 a*
*Telefon: (02525) 4-24-89*

**Balakən Rayon GEM**

Tibbi-statistik - 1.0

*Ünvan: R.Səmədov küç., 27*
*Telefon: (02429) 5-12-93*

**Gəncə Şəhər Gigiyena və Epidemiologiya Mərkəzi**

Feldşer-laborant - 1.0

*Ünvan: İ.Qayıbov küç., 207*
*Telefon: (02225) 6-12-43*

## Abunə kampaniyası davam edir!

**2023-cü ilin I yarısı üçün abunə kampaniyası dekabr ayının 31-dək davam edəcək. Bir nüsxənin 6 aylıq abunə haqqı 7 manat 50 qəpikdir. Abunə haqqı ya redaksiyada ödənməli, ya da qəzetin aşağıdakı bank hesabına köçürülməlidir:**

**«Tibb qəzeti» VÖEN 1400410961 İBAN AZ43İBAZ 38090019449323220204 h/h38090019449323220204 Bank: Beynəlxalq SKB-nin Mərkəzi filialı Kod: 805722 AZ03NABZ 01350100000000002944 BANK (VÖEN)9900001881 S W İ F T İBAZAZ 2 X**


Baş redaktor:
N.MƏCİDOVA

Baş redaktorun müavini:
S.NƏBİYEVA

Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.

Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92

Ünvan: Mirəsədulla Mirqasımov küç., 1. Səhiyyə Nazirliyi, 2-ci mərtəbə, 249-cu otaq
Tel./fak: (012) 596-06-61
E-mail: tibbqazeti@mail.ru
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.
İndeks: 1065
Tiraj: 9650